

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 36 (24.522)
19 sentyabr 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# 20 sentyabr – Dövlət Suverenliyi Günü
## Qalib Azərbaycanın Zəfər tarixi



### Xalq-dövlət-ordu birliyi – Zəfərdən suverenliyə

Müasir Azərbaycanın müstəqillik yolundakı şərəfli və məsuliyyətli inkişafının sarsılmaz təməlləri Ümummilli Lider Heydər Əliyev tərəfindən atılıb. Azərbaycanın dünya birliyində söz sahibi olan dövlətə çevrilməsi, suveren və qalib ölkə kimi tarix yazması isə Prezident İlham Əliyevin rəhbərliyi ilə reallığa dönüb. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir sərkərdəliyi ilə həyata keçirilən "dəmir yumruq" əməliyyatı Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı, regionda yeni reallıqlar yaratdı. 44 günlük müharibədə işğal altındakı torpaqlarımızın böyük hissəsi döyüş meydanında azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonları isə həmin ilin sonuna qədər bir mərmi atılmadan öz sahibinə qaytarıldı. Vətən müharibəsi Azərbaycan Ordusunun gücünü, xalqımızın birliyini və dövlətimizin qətiyyətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan qalib tərəf olaraq müharibədən sonra da sülh təşəbbüsləri ilə çıxış etdi. Lakin Ermənistan və onun dəstəklədiyi separatçı rejim uzun müddət sülh prosesinə mane olmaqda davam etdi.

### Qısa vaxt, əvəzsiz qələbə

10 noyabr 2020-ci il Bəyanatı bölgədə yeni vəziyyət yaratdı. Ermənistanla Xankəndidəki separatçılar arasındakı əlaqə Azərbaycan ərazisindən Laçın dəhlizi vasitəsilə təmin edilirdi. Lakin bu imkan sülh naminə istifadə olunmaq əvəzinə silah-sursat daşınmasına yönəldildi. Atəşkəs dəfələrlə pozuldu, təhlükəsizlik vəziyyəti davamlı təhdid altında saxlanıldı. Qondarma rejim militarist bəyanatlarla çıxış edərək Azərbaycan dövlətinin səbir kasasını daşırdı. Bizim bütün sülhsevər davranışlarımız və səylərimizin əvəzinə erməni silahlı qüvvələri iki dövlət arasındakı şərti sərhədi pozmaqda davam etdi və mövqelərimizi atəşə tutdu. 2023-cü ilin sentyabrında isə bölgədə Ermənistan silahlı birləşmələrinin törətdiyi genişmiqyaslı təxribatların qarşısını almaq və ərazilərimizin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən lokal xarakterli antiterror tədbirləri həyata keçirildi.

Səhifə ➡ 3

### Biz bu gün Xankəndinin mərkəzindəyik, Azərbaycan Bayrağı altında, bu, tarixi hadisədir



Səhifə ➡ 5

### Naxçıvanın güclənən hərbi potensialı: ordu quruculuğunda yeni mərhələ



Səhifə ➡ 6

### Bir məktəbin qapısında başlayan yeni hekayə: Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb



Səhifə ➡ 8

### Zəngəzur dəhlizi üzərində Ordubad



Səhifə ➡ 10

### Gəl, gəzək bu şəhəri



Səhifə ➡ 11

# Azərbaycanın 32 illik strateji yolu:

## "Əsrin müqaviləsi"ndən qlobal enerji layihələrinə

**Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının mühüm mərhələlərindən biri – 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın müasir tarixində dərin məzmun kəsb edən siyasi-iqtisadi hadisə kimi yadda qalıb. Bu saziş yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın qarşısında yeni inkişaf mərhələsi açan uzaqgörən strategiya oldu. Çünki söhbət yalnız Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının işlənilməsindən getmirdi. Əsas məsələ ölkənin malik olduğu təbii sərvətləri milli inkişafın uzunmüddətli və dayanıqlı mənbəyinə çevirmək, Azərbaycanı beynəlxalq enerji sisteminin fəal iştirakçısı kimi formalaşdırmaq idi. Prezident İlham Əliyevin də dediyi kimi: "1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu bizim üçün həyatda qalmaq layihəsi idi. Bu bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi".**



Bəli, 1994-cü ildə əsası qoyulan neft strategiyasını yalnız neft sənayesinin inkişaf proqramı kimi qiymətləndirmək doğru olmazdı. Sonrakı proseslər göstərdi ki, həmin strategiya iqtisadiyyatın dirçəldilməsi, xarici sərmayələrin cəlb edilməsi, ixrac marşrutlarının şaxələndirilməsi, enerji təhlükəsizliyinin təmin olunması və Azərbaycanın geosiyasi mövqeyinin möhkəmləndirilməsini özündə birləşdirən kompleks dövlət siyasətinə çevrildi.

Həmin dövrün reallıqları bu qərarın miqyasını daha aydın göstərir. Müstəqilliyin ilk illərində Azərbaycan dərin iqtisadi və siyasi böhranla üz-üzə idi. Belə bir şəraitdə dünyanın aparıcı enerji şirkətlərinin Azərbaycana sərmayə yatırması asan məsələ deyildi. Lakin Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs nəticəsində ölkədə sabitlik təmin edildi, xarici investorlar üçün hüquqi və iqtisadi zəmanətlər formalaşdırıldı və 1994-cü il sentyabrın 20-də "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalandı. 7,4 milyard dollar dəyərində olan "Əsrin müqaviləsi"ndə 7 ölkəni təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak edirdi. Sonrakı qiymətləndirmələrə əsasən AÇG üzrə çıxarıla bilən neft ehtiyatları, təxminən, 1 milyard ton həcmində müəyyənləşdirildi.

### *İlk neftdən böyük ixrac dəhlizlərinə*

Strategiyanın uğuru üçün neftin hasil edilməsi qədər onun dünya bazarlarına etibarlı şəkildə çatdırılması da vacib idi. Bu səbəbdən növbəti mərhələdə ixrac marşrutlarının şaxələndirilməsi əsas prioritetlərdən birinə çevrildi. 1997-ci il noyabrın 7-də "Çıraq" yatağından ilk neftin hasil olunması strategiyanın artıq real nəticələr verməyə başladığını göstərdi. Ardınca Bakı-Novorossiysk və Bakı-Supsa marşrutlarının istifadəyə verilməsi Azərbaycan neftinin müxtəlif istiqamətlər üzrə ixracına imkan yaratdı.

Lakin Azərbaycan üçün əsas hədəf neft ixracında daha böyük və müstəqil marşrutun yaradılması idi. Bu baxımdan, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşdırılması neft strategiyasının ən mühüm mərhələlərindən biri oldu. BTC-nin təməli 2002-ci ildə qoyuldu, 2006-cı ildə Türkiyənin Ceyhan limanından Azərbaycan neftinin nəqlinə başlanıldı. Bununla Azərbaycanın enerji ixracında yeni mərhələ yarandı. Xəzər neftinin Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarılması Azərbaycan neftinin ixracı üçün daha uzunmüddətli və şaxələndirilmiş marşrut formalaşdırdı. Bakı-Tbilisi-Ceyhan Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən, Xəzər hövzəsini Aralıq dənizi ilə əlaqələndirən və Şərq-Qərb enerji dəhlizinin əsas elementlərindən birinə çevrilən nəhəng infrastruktur layihəsi oldu.

### *Neft strategiyasından qaz strategiyasına*

1994-cü ildə başlanmış prosesin mühüm xüsusiyyətlərindən biri onun zaman keçdikcə yalnız neftlə məhdudlaşmaması idi. 1996-cı ildə "Şahdəniz" yatağı üzrə hasilatın pay bölgüsü sazişinin imzalanması Azərbaycanın enerji strategiyasının növbəti böyük istiqamətini müəyyənləşdirdi. Əgər "Əsrin müqaviləsi" Azərbaycanın neft potensialını dünya bazarlarına çıxarmaq üçün əsas yaratmışdısa, "Şahdəniz" ölkənin qaz potensialının beynəlxalq enerji sisteminə inteqrasiyasına imkan verdi.

2007-ci il iyulun 3-də Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan artıq yalnız neft ixrac edən ölkə deyil, həm də regional qaz təchizatçısı kimi mövqeyini gücləndirdi. Beləliklə, 1994-cü ildə başlayan enerji siyasəti yeni məzmun qazandı: neftdən əldə olunan imkanlar qaz sektorunun inkişafına, qaz ehtiyatları isə Azərbaycanın regional və beynəlxalq enerji rolunun daha da güclənməsinə xidmət etdi.

Bu ardıcıllıq təsadüfi deyildi. Azərbaycanın enerji siyasətində hər yeni layihə əvvəlki mərhələnin yaratdığı imkanların üzərində qurulurdu. "Əsrin müqaviləsi" investisiya və hasilat üçün baza yaratdı, ixrac kəmərləri həmin hasilatı bazarlara çıxardı, "Şahdəniz" isə Azərbaycanın qaz potensialını növbəti strateji mərhələyə daşıdı.

### *Enerji xəritəsində yeni mərhələ – Cənub Qaz Dəhlizi*

Azərbaycanın enerji strategiyasının ən mühüm nəticələrindən biri Cənub Qaz Dəhlizinin yaradılması oldu. 2014-cü il sentyabrın 20-də – "Əsrin müqaviləsi"nin 20 illiyi günündə Cənub Qaz Dəhlizinin təməli qoyuldu. Layihəyə "Şahdəniz-2", Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP daxil idi. 2020-ci il dekabrın 31-dən TAP vasitəsilə Azərbaycan qazının Avropaya kommersiya nəqlinə başlanıldı. Beləliklə, 1994-cü ildə Xəzərin Azərbaycan sektorunda başlayan proses 26 il sonra Azərbaycan qazının Avropa bazarlarına çıxarılması ilə yeni strateji nəticəyə çevrildi.

Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan artıq yalnız enerji resurslarına malik ölkə statusu ilə kifayətlənmədi. Ölkə enerji resurslarının hasilatçısı olmaqdan çıxaraq onların nəqli üçün infrastruktur yaradan, tranzit imkanlarını genişləndirən və istehlakçı ölkələrlə uzunmüddətli tərəfdaşlıq münasibətləri quran dövlətə çevrildi. Cənub Qaz Dəhlizi Azərbaycanı Gürcüstan, Türkiyə və Avropa ölkələri ilə birləşdirən çoxşaxəli əməkdaşlıq platformasına çevirdi. Bu gün respublikamız həmin layihə üzrə 16 ölkəyə mavi yanacaq ixrac edir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır.

### *Neft gəlirlərinin dövlətin inkişafına çevrilməsi*

Neft strategiyasının digər mühüm istiqaməti enerji gəlirlərinin idarə olunması idi. 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondunun yaradılması bu baxımdan prinsipial əhəmiyyət daşıdı. Məsələ yalnız neft gəlirlərinin toplanması deyil, təbii sərvətlərdən əldə olunan gəlirlərin makroiqtisadi sabitliyə, sosial layihələrə, infrastrukturun yenilənməsinə və gələcək nəsillərin rifahına xidmət etməsini təmin etmək idi.

Bu siyasətin nəticəsində neft sektorundan formalaşan maliyyə imkanlarının bir hissəsi iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldildi. İnfrastruktur layihələrinin genişləndirilməsi, regionların inkişafı, nəqliyyat şəbəkəsinin yenilənməsi, sosial obyektlərin tikintisi və insan kapitalına investisiyalar enerji gəlirlərinin ölkənin ümumi inkişafına transformasiya edilməsinin nümunələrinə çevrildi.

2025-ci ilin yekunları bu maliyyə imkanlarının uzunmüddətli xarakterini göstərir. Dövlət Neft Fondunun aktivləri 2025-ci ilin sonunda 73,5 milyard ABŞ dollarına çatıb. Həmin il fondun dövlət büdcəsinə transferi 14 milyard 481 milyon manat təşkil edib.

Energetika Nazirliyinin 2025-ci ilin yekunlarına dair məlumatına əsasən ötən il ölkədə qaz-kondensatla birlikdə 27,7 milyon ton neft hasil edilib. Bunun 16,2 milyon tonu AÇG-nin, 7,1 milyon tonu SOCAR-ın, 3,8 milyon tonu "Şahdəniz"in, 0,6 milyon tonu isə "Abşeron" yatağının payına düşüb. İl ərzində 23,1 milyon ton neft ixrac olunub. Ötən il Azərbaycanda 51,5 milyard kubmetr təbii qaz hasil edilib. Bunun 27,9 milyard kubmetri "Şahdəniz"in, 14,1 milyard kubmetri AÇG-nin, 1,6 milyard kubmetri "Abşeron"un, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

2025-ci ildə qaz ixracının həcmi 25,2 milyard kubmetr olub. Bunun 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə (o cümlədən TANAP-la 5,6 milyard kubmetr), 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetri isə Suriyaya ixrac edilib. 1990-cı illərin ortalarında iqtisadi böhran yaşayan Azərbaycanın bu gün Avropanın enerji bazarında təchizatçı ölkələrdən birinə çevrilməsi neft strategiyasının miqyasını xarakterizə edən ən mühüm faktlardan biridir.

Ümumilikdə, AÇG və "Şahdəniz" yataqları istismara veriləndən 2026-cı il yanvarın 1-dək, təxminən, 670,3 milyon ton neft, 508,6 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə 668,3 milyon ton neft və 191,2 milyard kubmetr qaz ixrac olunub.

### *Strategiyanın davamlılığı*

Neft strategiyasının ən mühüm xüsusiyyətlərindən biri isə onun uzunmüddətli olmasıdır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin müddətinin 2017-ci ildə 2050-ci ilədək uzadılması bunun göstəricilərindən biridir. Bu qərar AÇG-də hasilatın davam etdirilməsi və Azərbaycanın enerji sektorunda beynəlxalq tərəfdaşlığın uzunmüddətli əsasda qorunması baxımından mühüm mərhələ oldu. Bu mənada, 1994-cü ildən 2026-cı ilə qədər olan dövrə nəzər saldıqda bir inkişaf xətti aydın görünür: əvvəlcə neft yataqlarının işlənilməsi üçün sərmayə cəlb edildi, sonra ixrac kəmərləri quruldu, qaz yataqları işə salındı, regional enerji dəhlizləri formalaşdırıldı və enerji gəlirləri dövlət inkişafına yönəldildi.

Bu gün isə enerji strategiyasının gündəliyi daha da genişlənir. Ənənəvi neft-qaz layihələri ilə yanaşı, bərpa olunan enerji mənbələri, "yaşıl enerji" dəhlizləri və elektrik enerjisinin ixracı kimi istiqamətlər ön plana çıxır. Bu isə göstərir ki, 1994-cü ildə formalaşdırılan strateji yanaşmanın mahiyyəti dəyişmir: Azərbaycanın enerji potensialından milli maraqlara və uzunmüddətli iqtisadi inkişafa uyğun istifadə etmək.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyəti yalnız Azərbaycana gətirdiyi investisiyalarla ölçülə bilməz. Bu sənəd müstəqil Azərbaycanın enerji siyasətinin institusional və iqtisadi əsaslarını formalaşdırdı, ölkənin dünya enerji bazarına çıxışını təmin etdi və sonrakı iri layihələr üçün etibarlı baza yaratdı. Bu gün həmin strategiyanın nəticələri yalnız neft platformalarında, boru kəmərlərində və ixrac rəqəmlərində deyil, Azərbaycanın iqtisadi və geosiyasi mövqeyində də qorunur.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP və Cənub Qaz Dəhlizi kimi layihələr bir-birindən ayrı təşəbbüslər deyil, 1994-cü ildə əsası qoyulan böyük enerji strategiyasının müxtəlif mərhələləridir. Ən başlıcası isə odur ki, Azərbaycan təbii sərvətini, sadəcə, ixrac etməklə kifayətlənməyib. Neft və qazdan əldə olunan imkanları iqtisadi gücə, iqtisadi gücü isə müstəqil siyasət yürütmək imkanlarına çevirməyə çalışıb və bunu mükəmməl şəkildə bacarıb. Bu baxımdan, 20 sentyabr – Neftçilər Günü həm Azərbaycanın neft sənayesinin çoxəsrlik tarixini, həm də müstəqillik dövrünün ən mühüm strateji qərarlarından birinin ildönümünü ifadə edir. 1994-cü ildə qoyulan təməl üzərində qurulan enerji strategiyası artıq üç onillikdən çoxdur ki, Azərbaycanın iqtisadi inkişafında, beynəlxalq enerji əməkdaşlığında və regional mövqeyinin möhkəmlənməsində mühüm rol oynayır. Bu yolun əsas dərsi isə aydındır: təbii sərvətin özü deyil, ondan necə və hansı strateji məqsədlərlə istifadə edilməsi dövlətin gələcəyini müəyyənləşdirir.

✍ **Nail ƏSGƏROV**

# 20 sentyabr – Dövlət Suverenliyi Günü




# Qalib Azərbaycanın Zəfər tarixi

(əvvəli 1-ci səhifədə)

Bu əməliyyat yalnız hərbi baxımdan deyil, həm də strateji və siyasi baxımdan da mühüm əhəmiyyət daşıdı. Çünki uzun illər işğal altında qalan ərazilərdəki qanunsuz hərbi fəaliyyət Azərbaycan dövlətçiliyinə və suverenliyinə birbaşa təhdid idi. Əməliyyatın 23 saat 43 dəqiqə davam etməsi və qələbə ilə başa çatması Azərbaycan Ordusunun yüksək peşəkarlığının, dəqiqliyinin və hərbi strategiyasının nəticəsi oldu. Qısa müddət ərzində bölgədə yerləşdirilmiş qanunsuz hərbi birləşmələr tamamilə tərk-silah edildi, onların strateji mövqeləri və nəzarət etdiyi ərazilər Azərbaycan dövlətinin nəzarətinə keçdi. Bu qələbə bir daha göstərdi ki, dövlət başçısının Azərbaycanın öz ərazilərində ikinci erməni dövlətinin yaradılmasına yol verilməyəcəyi barədə bəyanatları yalnız siyasi iradənin ifadəsi deyil, həm də dövlət siyasətinin qətiyyətli nəticəsidir. Xankəndi, Xocalı, Xocavənd və Ağdərənin azad olunması isə uzun illər davam edən işğal, separatizm və qanunsuz hərbi fəaliyyətə verilən layiqli cavab oldu.

Uğurlu əməliyyatın vacib siyasi nəticələrindən biri də qondarma "Dağlıq Qarabağ" rejiminin özünü buraxdığını rəsmi şəkildə elan etməsi oldu. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi real şəkildə bərpa edildi, dövlət hakimiyyətinin bütün ərazilərdə təmin olunması üçün yeni mərhələ başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqla suverenliyimizin legitimliyini rəsmiləşdirdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası da respublikamızın bütün ərazisində tam şəkildə bərpa olundu.

### *Xankəndidə hərbi parad, düşmən tabutuna vurulan son mismar*

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən hərbi parad Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfərin üçüncü ildönümünə həsr olunmuşdu. Azərbaycan Ordusunun gücünü və hərbi qüdrətini nümayiş etdirən bu parad həm Ermənistan, həm də ermənilərin dünyadakı havadarları üçün ciddi mesaj oldu. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə yanaşı, regionda separatizmin tamamilə iflasa uğradığı bir daha nümayiş etdirildi. Bu hadisə Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi istiqamətində atılan addımların tarixi əhəmiyyətini təsdiqlədi.

2024-cü il fevralın 7-də müasir tariximizin ən yaddaqalan siyasi hadisəsi baş verəndə bu bir daha sübut olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində prezident seçkisində səs verərək düşmən tabutuna son mismarı vurdu. Bu hadisə təkcə seçki proseduru deyil, həm dəAzərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasının güclü siyasi rəmzi idi.

### *Qələbənin simvolu*

Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə təsis edilən 20 sentyabr – Dövlət Suverenliyi Günü xalqımızın mübarizə əzminin və qələbəsinin simvoluna çevrildi. Bu tarix müstəqillik uğrunda yüzilliklər boyu aparılan mübarizənin, ərazi bütövlüyünün bərpasının və milli iradənin təntənəsi kimi tariximizə daxil oldu. Dövlət Suverenliyi Gününün təsis edilməsi Azərbaycanın 1991-ci ildən bu günə kimi keçdiyi çətin və şərəfli yolun məntiqi yekunudur. Bu tarix həm 2020-ci ildəki böyük Qələbənin, həm də 2023-cü ildə həyata keçirilən antiterror tədbirlərinin kuliminasiya nöqtəsini simvolizə edir. Eyni zamanda XXI əsrdə Azərbaycan dövlətinin müstəqilliyinin daha da möhkəmlənməsini və suverenlik ideyasının tam reallaşmasını əks etdirir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövləti yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir".***

### *Böyük Qayıdış – insanlar yurduna qayıdır*

Artıq Qarabağın şəhərləri böyük tikinti və şəhərsalma layihələrinin mərkəzinə çevrilib. Dövlət proqramlarına əsasən Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə fərdi evlərin və çoxmənzilli yaşayış binalarının inşası aparılır. Xankəndi şəhərində "ağıllı şəhər" konsepsiyası tətbiq olunur. Xocalıda infrastruktur layihələri çərçivəsində yol şəbəkəsi bərpa olunur, yeni məktəblər, xəstəxanalar və sənaye müəssisələri yaradılır. Xocavənddə kənd təsərrüfatı və sənaye parklarının salınması, müasir istixana kompleksinin qurulması üçün imkanlar yaradılır. Ağdərədə isə dövlət-özəl tərəfdaşlığı əsasında enerji istehsalı və "yaşıl texnologiya"lar layihələri həyata keçirilir. Xankəndinin, Xocalının və işğaldan azad edilmiş digər ərazilərimizin inkişafı bu gün həm qələbənin, həm də quruculuq ruhunun ifadəsidir. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri ilə əldə olunan tarixi zəfərlər bu gün infrastruktur və abadlıq işləri ilə möhkəmlənir. Xankəndi və digər şəhərlərdə parkların, mədəniyyət evlərinin, idman komplekslərinin tikintisi insanlara yeni həyat bəxş edir. Azərbaycan xalqı artıq Böyük Qayıdış prosesinin real nəticələrini görür. Bir vaxtlar adlarını çəkəndə bizə işğalı və ədalətsizliyi xatırladan Xankəndi, Xocalı, Xocavənd və Ağdərə bu gün milli iradənin, dövlətin gücünün, xalqın birliyinin rəmzinə çevrilib. Qarabağ Universitetinin uğurlu fəaliyyəti də bu torpaqlarda yeni həyatın və yeni gələcəyin qurulduğunun göstəricisidir.

2023-cü ilin antiterror əməliyyatı Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi oldu. Müzəffər Sərkərdənin rəhbərliyi ilə Azərbaycan artıq Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və inkişafın aparıcı qüvvəsinə çevrilib. Qazandığımız qələbə ilə əldə etdiyimiz dövlət suverenliyinin qorunması və möhkəmləndirilməsi Azərbaycanın gələcəyini daha da əzəmətli və görkəmli edəcək. Bu gün hər bir azərbaycanlı qürurla deyir ki, qüdrətli Azərbaycan dövlətinin müstəqilliyi və suverenliyi əbədi və dönməzdir. Artıq heç bir güc xalqımızın iradəsini, dövlətimizin suverenliyini sındıra bilməz.

**Ramiyə ƏKBƏROVA**



# Prezident İlham ƏLİYEV:

*"Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq. Biz sülhü gücləndirmək üçün əlimizdən gələni etməliyik ki, o, əbədi sülh olsun."*



## Qalib lider təkcə öz xalqına deyil, bütün regiona sülh və təhlükəsizlik bəxş etmək qüdrətindədir

### Qafqaza sülh gəlir

Prezident İlham Əliyev yürütdüyü müstəqil, milli maraqlara söykənən siyasi kurs sayəsində yalnız hərb meydanında deyil, siyasi masada da üstünlüyü ələ alaraq 30 ildir, həllini gözləyən bir problemi cəmi 44 gündə həll edib Müzəffər Ali Baş Komandan adını qazandı. Vətən müharibəsi başlanan gündən *"Mən xalqımdan heç nəyi gizlətmirəm"*, – deyərək xalqa hər müraciətində cəbhədən xəbərləri özü çatdırdı.

Vətən savaşının qələbə ilə başa çatması Cənubi Qafqazda yeni eranın başlanması üçün əsaslı zəmin yaratdı. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən yeni şərait Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım oldu.

Daim humanist və sülhsevər bir dövlət olan Azərbaycanın sülhpərvər mövqeyi, dünya dövlətləri ilə qurduğu yüksəksəviyyəli diplomatik əlaqələri regionun stabil inkişafı və təhlükəsizliyinin təminatında ölkəmizin üzərinə düşən rolu uğurla yerinə yetirdiyini sübut edən amillərdən biridir. Azərbaycanın dünya dövlətləri ilə yaratdığı münasibətlər xarici diplomatiyadakı uğurun göstəricisi olduğu kimi, ölkə ərazisində yaşayan müxtəlif millətlərin nümayəndələrinin bir bayraq altında birləşməsi daxili sabitliyin və birliyin nümunəsi oldu.

Əlbəttə, 30 ildə – işğal illərində başımıza gətirilən müsibətlərin səbəbkarları ilə inteqrasiya prosesinin tez və asan baş verəcəyini düşünmək sadəlövhlük olardı. Azərbaycan tərəfi sülh və əməkdaşlıq prinsiplərinə əsaslanan ardıcıl addımlar atmaqda davam edir. Amma onu da unutmamalıyıq ki, Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərqərar olması üçün qarşılıqlı addımlar atılmalıdır. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik".***

2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyini tam bərpa etdikdən sonra ölkəmizin siyasi hücumlara məruz qalmasına baxmayaraq, dövlət başçısı yenə də sülh təklif etdi. Ermənistan Vətən müharibəsindəki məğlubiyyətdən sonra sülh masasında şərtləri qəbul etməyə məcbur oldu. Bu, qalib liderin təkcə öz xalqına deyil, bütün regiona sülh və təhlükəsizlik bəxş etmək qüdrətinin təzahürüdür.

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanmış üçtərəfli Birgə Bəyannamə və xarici işlər nazirləri səviyyəsində "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanması regional geosiyasətin dönüş nöqtəsi oldu. Bəyannamədə dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı kimi fundamental prinsiplər öz əksini tapdı. İrəvanın Azərbaycana qarşı ərazi iddialarından birdəfəlik imtina etməsi və bu istiqamətdə Ermənistan Konstitusiyasında lazımi dəyişikliklərin edilməsi öhdəliyi sülhün davamlılığı üçün həlledici zəmin yaratdı.

Ötən bir il ərzində dövlət başçısının xarici ölkələrə səfərləri zamanı bir neçə dəfə Ermənistanın Baş naziri ilə görüşləri, dövlət rəsmiləri arasında aparılan müzakirələr iki dövlətin sülhə yaxınlaşdığının göstəricisidir. Heç bir xarici müdaxilə olmadan dövlətlər arasında aparılan danışıqlar yaxın zamanda Ulu Öndərin daha bir arzusunun da yerinə yetəcəyinin göstəricisidir. Bu gün qürur hissi ilə deyirik ki, Müzəffər Sərkərdənin zəhməti ilə vaxtilə münaqişə zonası olan Cənubi Qafqaz sülh zonasına çevrilir. Yer kürəsində baş verən münaqişələr, həllini tapmayan problemlər, dünyanın ən böyük dövlətləri arasındakı müharibələr fonunda öz diplomatik gücü və sərkərdəlik məharəti ilə 30 illik işğala son qoymağı bacaran Azərbaycan lideri bu gün də Qafqaza sülh gətirir.

Azərbaycan xalqının sonsuz rəğbətini qazanaraq xalqın sevgisi ilə Ümummilli Lider adına layiq görülən dahi dövlət xadimi Heydər Əliyevin miras qoyduğu müasir Azərbaycanın səsi bu gün ölkə və region sərhədlərini aşaraq dünyadan gəlir. Qazandığımız qələbə, əldə etdiyimiz Zəfər və yaratdığımız reallıqla artıq hamı razılaşmaq məcbur qalır. Çünki prezident seçildiyi ilk gündən cənab İlham Əliyevin əsas amalı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və Azərbaycan xalqının adının dünya siyasi tarixinə məğlub yox, qalib xalq kimi yazılması olub. Vədinə sadiq qalıb verdiyi bütün sözləri yerinə yetirən Prezident İlham Əliyev bu müharibədə qalib gəlməklə təkcə öz taleyimizi yox, Qafqazın, ümumilikdə, türk xalqlarının taleyini də dəyişir.

**✍ Ramiyə ƏKBƏROVA**

## Azərbaycanın sülh gündəliyi: *regional sabitliyə və qarşılıqlı faydalı əməkdaşlığa doğru*

Azərbaycanın həyata keçirdiyi xarici siyasətin mühüm istiqamətlərindən biri regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın təşviqidir. Bu siyasətin əsas xüsusiyyəti ondan ibarətdir ki, respublikamız sülhü yalnız müharibə və qarşıdurmaların olmaması kimi deyil, həm də qarşılıqlı etimadın, iqtisadi əməkdaşlığın, nəqliyyat əlaqələrinin, humanitar təhlükəsizliyin və xalqlar arasında dialoqun formalaşdırılması kimi dəyərləndirir. Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik siyasət nəticəsində Azərbaycanın sülh gündəliyi artıq regional çərçivədən çıxaraq beynəlxalq müstəvidə də diqqət çəkən siyasi istiqamətlərdən birinə çevrilib. Bu baxımdan, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş xüsusi əhəmiyyət daşıyır. Görüşdə Azərbaycan və Ermənistan arasında paraflanan sülh sazişinin razılaşdırılmış mətni, imzalanan Birgə Bəyannamə iki ölkə arasında münasibətlərin normallaşdırılması, kommunikasiyaların açılması və regional əməkdaşlığın inkişafı baxımından mühüm mərhələ oldu.

Azərbaycanın sülh gündəliyində mühüm yer tutan digər məsələ isə regionda kommunikasiyaların açılmasıdır. Çünki dayanıqlı sülh yalnız siyasi sənədlərin imzalanması ilə təmin olunmur. Dövlətlər arasında iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsi, insanların və malların hərəkətinin asanlaşdırılması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi sülhün sosial-iqtisadi dayaqlarını möhkəmləndirir.

Azərbaycanın yanaşmasında sülh anlayışının digər mühüm komponenti müharibənin humanitar nəticələrinin aradan qaldırılmasıdır. Mina və partlamamış hərbi sursatların yaratdığı təhlükənin aradan qaldırılması, itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, münaqişədən zərər çəkmiş insanların hüquqlarının qorunması, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına qayıtması sülh prosesinin ayrılmaz hissəsidir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri də bu yanaşmanın praktiki ifadəsidir.

Azərbaycanın sülh siyasətinin regional çərçivədən kənara çıxmasının göstəricilərindən biri də bu il yanvarın 22-də Prezident İlham Əliyevin Davosda Sülh Şurasının Nizamnaməsini imzalaması oldu. Prezidentin digər dövlət və hökumət başçıları ilə birlikdə Nizamnaməni imzalaması Azərbaycanın qlobal sülh təşəbbüslərində iştirakının yeni müstəvisini nümayiş etdirdi.

Azərbaycanın sülh gündəliyinə beynəlxalq səviyyədə verilən qiymətin mühüm göstəricilərindən biri Prezident İlham Əliyevin 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsidir. İnsan qardaşlığı, həmrəylik, dialoq və dərin bölünmələrin aradan qaldırılması kimi ali dəyərləri əsas götürən bu mükafat Azərbaycanın sülh və əməkdaşlığa əsaslanan siyasətinin beynəlxalq miqyasda diqqət çəkdiyini göstərir.

Sülhün möhkəmlənməsi regionda iqtisadi əlaqələrin genişlənməsi, nəqliyyat-kommunikasiya xətlərinin bərpası və qarşılıqlı etimadın güclənməsi üçün yeni imkanlar yaradır. Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi də Azərbaycan-Ermənistan münasibətlərində formalaşan yeni reallığa və ölkəmizin sülh təşəbbüslərinə beynəlxalq diqqətin göstəricisidir. Bu baxımdan, Azərbaycanın sülh gündəliyi yalnız münaqişənin başa çatdırılmasına deyil, regionda davamlı sabitliyin, iqtisadi əməkdaşlığın və qarşılıqlı etimadın formalaşdırılmasına hesablanmış geniş siyasi strategiya kimi çıxış edir. Sülh siyasi sənədlərlə məhdudlaşmır, iqtisadi, nəqliyyat, humanitar və sosial əlaqələrin inkişafı ilə möhkəmləndirilir.

2025-ci ilin Vaşinqton görüşündən sonra formalaşan yeni mərhələ Azərbaycanın uzun müddətdir, irəli sürdüyü "sülh yolu ilə inkişaf" yanaşmasının praktik nəticələrini də göstərir. Münaqişənin yaratdığı təhlükəsizlik problemlərinin aradan qaldırılması ilə yanaşı, regionun nəqliyyat və iqtisadi xəritəsinin yenidən formalaşdırılması, ölkələr arasında əlaqələrin genişləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlıq imkanlarının artırılması qarşıdakı dövrün əsas istiqamətlərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin məntiqi də məhz bundan ibarətdir: müharibədən sonrakı mərhələdə sülhü qorumaq, sülhü möhkəmləndirmək və onu xalqların rifahına xidmət edən real əməkdaşlıq modelinə çevirmək. Bu mənada, Azərbaycanın regional və qlobal sülh təşəbbüslərində fəal iştirakı ölkənin xarici siyasətində yeni mərhələnin göstəricisidir.

**✍ Nail ƏSGƏROV**



## Xocalı: “Böyük Qayıdış” proqramının ən maraqlı, zəngin səhifələrindən biri

Xocalıdayam. İllərlə həsrəti ilə yaşadığımız bu şəhərdə. Yayın son günlərindən birində. Xocalı şəhər tam orta məktəbinin qarşısında dayanmışam. Bu, illərdir, uşaq səsinə həsrət qalan məktəbdir. Aliyə müəllim dərsə tələsir, Raya nənə nəvələri ilə gəlib.

O soyuq fevral gecəsində hələ yeddi yaşında ayaqyalın çıxmışdı Xocalıdan Aliyə adlı kiçik qız. Atasını, qohumlarının çoxunu həmin qanlı gecədə itirmişdi. Xocalıdan ağlaya-ağlaya çıxan o körpə qız uşağı artıq iki ildir ki, Xocalıya ali təhsilli bir xanım kimi qayıdıb. Qalib xalqın qalib gələcəyinə Xocalı rayonunda, öz doğma məktəbində dərs deyir. Raya nənə nəvələrini məktəbə yola salır, onların ardınca baxır, köks ötürür. Baxışları uzaqlara zillənir. Həmin qanlı gecədə itirdiyi əzizlərini yada salır, zənnimcə. Gənc polis zabitinin üzündəki qürura sataşır gözüm. Xocalılı olub Xocalını görmədən böyüyən Rəşad... Atası polis zabiti kimi döyüşüb, bu şəhərin müdafiəsində sağlamlığını itirib. Ən böyük arzusu isə oğlunun da bu torpaqlarda xidmət etməsi olub. Bu gün o burada dalğalanan Azərbaycan Bayrağının keşiyində qürurla dayanır. Bəli, onlar illərlə Xocalı həsrəti ilə yaşayan xocalılılardan bir neçəsidir.

2023-cü ilin sentyabrında Azərbaycan əsgərinin qələbəsi ilə sevinən xocalılılar. Həmin gün “Xocalı azaddır!” sözlərini eşidəndə ürəkdən bir ah çəkdilər. Xocalılıların qisası qiyamətə qalmadı. İgid oğullarımız qiyamətə saxlamadı bu qisası. Biz artıq Xocalıya qayıtmışıq. Soyuq bir qış gecəsində qarın üzərinə düşən qan izləri ilə çıxarıldığımız Xocalıya əbədi bahar qayıdıb...

İlk köç öz yurduna çatanda insanların isti nəfəsi qayıtdı buraya. Artıq Ballıca, Xanyurdu, Təzəbinə kəndlərində, Xocalı şəhərində yaşayan sakinlər azad Xocalıda yaşamağın qüruru ilə ömür sürür. Dövlət başçısının Xocalıya hər səfəri və sakinlərlə görüşməsi yaddaşlara həkk olunur. Bütün dünyaya diktə edir ki, biz bu torpaqların əbədi sahibiyik.

İnsanların öz yurduna qayıtması, rayon ərazisində insanların məşğulluğunun təmin edilməsi üçün görülən işlər, yeni-yeni layihələrin həyata keçirilməsi Böyük Qayıdışı daha sürətləndirməklə yanaşı, insanların dövlətinə inamını artırır. “Böyük Qayıdış” proqramı çərçivəsində Xocalı şəhəri və rayonun ətraf kəndlərinə (Ballıca, Təzəbinə və Xanyurdu) indiyədək, ümumilikdə, 4 minə yaxın çox sakin köçürülərək öz doğma yurduna qovuşub. Xocalıda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində əhalinin mərhələli şəkildə geri dönüşü davam edir. Qayıdan sakinlərin rahatlığı üçün fərdi evlər və çoxmənzilli binalar tam bərpa edilib, “Xocalı” yarımstansiyası, Rəqəmsal İdarəetmə Mərkəzi, kərpic zavodu və müxtəlif müəssisələr işə salınaraq əhalinin məşğulluğu təmin olunub. Xocalıda “AzeRobot Education” Robototexnika Tədris Mərkəzi, “Nakhishli” atelyesi, “Gilabi Ceramics” emalatxanası, “Sariban” Peşə İnkişaf Mərkəzi fəaliyyət göstərir.

Xocalı önəmli strateji mövqeyə malikdir. Burada beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu və dəmir yolu fəaliyyət göstərəcək. Bütün bunlar Xocalını nəqliyyat qovşağı və logistika mərkəzi kimi əhəmiyyətli edəcək. Bu da Ağdam, Xankəndi və Şuşa şəhərlərinin yaxınlığında yerləşən Xocalının regional mərkəz kimi davamlı surətdə inkişaf etməsinə təkan verəcək. Bütün sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar açılacaq. Əsasən, 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər Xocalıya xüsusi gözəllik verəcək. Torpağın münbitliyi nəzərə alınaraq şəhər daxilində kiçik aqropark yaradılıb.

Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələrlə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Qarabağ və Şərqi Zəngəzur “yaşıl enerji zonası” elan edilib. Həyata keçirilən və planlaşdırılan layihələr bölgənin gələcək inkişafı üçün böyük perspektivlər açır. Əminik ki, Xocalı da digər şəhərlərimiz kimi, dövlət qayğısından öz payını alaraq əvvəlki gözəlliyinə və inkişafına qovuşacaq. Xocalı sakinləri bu gün xalqımıza qürurunu qaytaran ordumuza və Ali Baş Komandanımıza minnətdardırlar. Bu gün şəhidlərin də ruhu şaddır. Çünki onların azad etdiyi torpaqlara həyat qayıdır.

**Bura Xankəndidir. İlk dəfə bu şəhəri 2024-cü ildə Şuşadan, Cıdır düzündən böyük bir qürurla izləmişdim. Cəmi altı ay idi ki, ordumuzun nəzarətinə keçmişdi Xankəndi. Yaz yenicə gəlmişdi şəhərə. Bu, illər sonra gələn ədalət baharı idi. Ordumuzun 2023-cü ilin payızında gətirdiyi ədalətin tablosuna baxırdım sanki. Şuşadan ayrılıb Zəfər yolu ilə Bakıya qayıdanda Xankəndinin mənzərəsi daha da yaxınlaşır, insanın ruhuna sakitlik gətirirdi. Şəhərin mərkəzində dalğalanan Müzəffər Sərkərdənin əllərində göylərə yüksəldilən Zəfər bayrağı isə sözünə sadiqliyin ifadəsi idi.**

## Biz bu gün Xankəndinin mərkəzindəyik, Azərbaycan Bayrağı altında, bu, tarixi hadisədir

Vaxtilə Qarabağ xanlarının taxtı qurulan bu torpaq illərlə xain əllərlə düşmənə pay verilməyə çalışılsa da, buna nail ola bilməyiblər. Hətta sovetlər dönəmində buraya köçürülən erməni ailələrinin sayını artırmaqla azərbaycanlıların sayını azaltmağa və bununla da Xankəndini ermənilərə hədiyyə etməyə cəhd göstəriblər. Lakin xalqımızın xilaskarı olan dahi rəhbər hər addımda buna mane olub. Sovet hakimiyyəti dövründə Ulu Öndərin göstərişi ilə dəmir yolu Xankəndinə qədər çəkilmiş, şəhərdə müasir dəmiryol stansiyası inşa edilmişdi. Bir çox müəssisələrin inşası da Heydər Əliyevin birinci hakimiyyəti dövründə həyata keçirilmiş, on minlərlə yerli sakin yüksək əməkhaqqı, mənzil və digər sosial dəstəklə təmin edilmişdi. 1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı açılıb. 1973-cü ildə isə filial Azərbaycan rəhbəri Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə müstəqil Pedaqoji İnstituta çevrilmişdi. Uzaqgörən siyasət nəticəsində Xankəndidə azərbaycanlı ailələrin sayı artırılmış, gənclərin işlə təmin olunması onların köçüb getməsinin qarşısını almışdı. Lakin dahi rəhbərin sovet hakimiyyəti idarəçiliyindən uzaqlaşdırılması, Azərbaycanın yeni müstəqillik qazandığı illərdəki daxili çəkişmələr Xankəndinin itirilməsi ilə nəticələnmişdi.

Vətən müharibəsində qazanılan Zəfərdən sonra – 2023-cü ildə Azərbaycan Bayrağı Xankəndinin mərkəzində Müzəffər Ali Baş Komandanın əllərində göylərə yüksəldi. Şəhər azad edildikdən sonra “Böyük Qayıdış” proqramı çərçivəsində Xankəndi şəhərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. İstifadəyə yararsız tikililər sökülür, şəhərin yeni Baş Planına uyğun müasir layihələr icra olunur. Xankəndidəki əsas binaların əksəriyyəti – Prezidentin xüsusi nümayəndəliyinin binası, “Xankəndi” Biznes Mərkəzi, Xankəndi şəhər stadionu yenidən bərpa edilərək istifadəyə verilib. Şəhərin mədəni yaddaşını yaşadan Dövlət Dram Teatrında da bərpa işləri ardıcıl şəkildə aparılır. İşğal dövrünün şəhərsalma prinsiplərinə uyğun olmayan tikililər sökülür, onların yerində müasir ictimai məkanlar, iaşə obyektləri və funksional şəhər strukturları yaradılır. Bu layihələr sırasında Zəfər parkı xüsusi əhəmiyyət daşıyır. Xankəndi Konqres Mərkəzi, “Qarabağ” və “Xankəndi” hotelləri, “Qarabağ” Universiteti də dövlət başçısının iştirakı ilə istifadəyə verilib.

Bu gün nüfuzlu tədbirlərə ev sahibliyi edən Xankəndidə son 3 ildə aparılan quruculuq işləri şəhərin tarixinin yeni səhifəsini yazır. Bu qədim Azərbaycan torpağının ev sahibliyi etdiyi tədbirlər qlobal siyasi gündəmdə təkcə mühüm beynəlxalq hadisə deyil, eyni zamanda Ermənistanın 30 il davam edən işğalının dağıntılarından bərpa-quruculuq dövrünə qədəm qoyan bir şəhərin dirçəlişinin rəmzidir. Artıq bu cənnət məkanda beynəlxalq tədbirlər keçirilir, Qarabağdan, Şərqi Zəngəzurdan dünyaya mühüm mesajlar ünvanlanır.

Bu il “Qarabağ” Universitetinə üçüncü tələbə qəbulu baş tutdu. Artıq bu təhsil ocağında 3 mindən çox gənc təhsil alır. Qürurverici haldır ki, bu universiteti seçənlərin çoxu yüksək bal toplayan gənclərdir. Bu isə o deməkdir ki, bu torpaq uğrunda döyüşən, canını fəda edən igid oğulların əmanəti etibarlı əllərdədir. İşğaldan azad edilmiş Xankəndidə yaradılan bu təhsil ocağını ən yüksək balla seçən gənc də bu torpaq üçün döyüşməyə və can verməyə hazır olan gənc qədər vətənpərvərdir.

Bu gün qədim Xankəndidə 28 min insan yaşayır. Bir neçə il öncə, bəlkə də, bu rəqəmi yazmaq bizim üçün çətin idi. Amma biz bunu bacardıq. Dünyanın ən yüksək tribunalarında öz diplomatik zəkası ilə düşmənə dərs keçən, döyüş meydanında ordusu və xalqı ilə birləşərək Qələbə qazanan Liderimizlə, qəlbi Vətən sevgisi ilə dolu xalqımızın birliyi ilə...

Xankəndi bu gün təkcə azad edilmiş şəhər deyil. O, Azərbaycanın qayıdan yaddaşının, Zəfərinin və gələcəyə inamının canlı simvoludur.

**Ramiyə ƏKBƏROVA**

# Naxçıvanın güclənən hərbi potensialı:
## ordu quruculuğunda yeni mərhələ

*Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin qorunması daim dövlət siyasətinin əsas prioritetlərindən olub. Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu ordu quruculuğu bu gün yeni mərhələdə davam etdirilir. Ərazi bütövlüyünün silahlı müdafiəsinin təşkili, hərbi təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsi, qoşunların əməliyyat imkanlarının və döyüş qabiliyyətinin artırılması, müasir növ silahlarla təchizat Azərbaycan Ordusunun artan gücünün və nüfuzunun göstəricisidir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər, 30 illik işğala son qoyulması, Ağdam, Kəlbəcər və Laçının döyüşsüz qaytarılması, 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa olunması Azərbaycan Ordusunun gücünü bir daha nümayiş etdirdi.*

### Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir

Zəfərin əldə olunmasında özünəməxsus payı olan Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun fəaliyyəti daim dövlət başçısının diqqətindədir. Naxçıvanın coğrafi mövqeyi, Azərbaycanın əsas hissəsi ilə quru bağlantısının olmaması burada müdafiə və təhlükəsizlik məsələlərinin xüsusi yanaşma ilə təşkilini zəruri edir. Silahlı Qüvvələri peşəkar kadrlarla təmin edən Heydər Əliyev adına Hərbi Liseydən sonra Naxçıvanda daha bir hərbi təhsil ocağının yaradılması da bu istiqamətdə atılan mühüm addımlardandır. Bu il ilk məzunlarını yola salan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kolleci gələcəkdə ordunun peşəkar gizir kadrları ilə təminatına töhfə verəcək. Dövlət başçısının Naxçıvana son səfəri zamanı hərbi potensialla tanış olması da bu diqqətin göstəricisidir. Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının təqdim olunması mərasimində iştirak etdilər. Azərbaycan Televiziyasına müsahibəsində Naxçıvanın müdafiə potensialını yüksək qiymətləndirən ölkə başçısı deyib: *"Bu illər ərzində, əlbəttə ki, ilk növbədə, Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, – özü də ən müasir texnika ilə, – həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir".*



### Yenilməyən güc – komando

Tarixi Zəfərdən sonra yeni əməliyyat (komando) qüvvələrinin yaradılması Naxçıvanın müdafiəsinin gücləndirilməsinə, daha peşəkar, bacarıqlı kadrların yetişməsinə göstərilən diqqətin ifadəsidir. Vətən müharibəsi bir daha göstərdi ki, ordunun gücü yalnız müasir silah, texnika ilə ölçülmür, şəxsi heyətin peşəkarlığı vacib amildir və bu amil məhz qələbəyə aparan yolda həlledici məqamdır. Naxçıvandan Şuşaya qədər şərəfli döyüş yolu keçən Naxçıvan xüsusi təyinatlılarının şücaətini yüksək qiymətləndirən ölkə başçısının Naxçıvana növbəti səfərində yeni yaradılan komando hərbi hissələrinə Döyüş bayraqlarını təqdim etməsi də bu baxımdan xüsusi məna və məzmun kəsb edir. Göstərilən etimad bu günə qədər yüksək hazırlığın, verilən tapşırıqlara peşəkar yanaşmanın nəticəsi olmaqla yanaşı, Əlahiddə Ümumqoşun Ordunun komando hərbi hissələrinin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində üzərlərinə qoyulan məsuliyyətdir.

Naxçıvanı relyef baxımından səciyyələndirsək, dağlıq və ya düzən ərazilərdə fəaliyyət göstərmək üçün bölmələrin yüksək manevr qabiliyyətinə və çevik idarəetmə xüsusiyyətlərinə malik olması mühüm şərt kimi önə çıxır. Bu baxımdan, komando hərbi hissələrinin yaradılması Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin daha da artırılması istiqamətində atılan vacib addımlardan biridir.

### "Qalib orduda xidmət etmək qürurdur"

Tarix də göstərir ki, ordu quruculuğu ən mürəkkəb proseslərdən biridir. Bu, peşəkar yanaşma ilə bərabər, bacarıq, dözümlülük, vətənpərvərlik, psixoloji hazırlığı özündə ehtiva edir. Eyni zamanda dövrün çağırışlarına uyğun olaraq yeni yanaşmalar, davamlı inkişaf, maddi-texniki bazanın modernləşdirilməsi tələb edir. Dövlət başçısının daim diqqətdə saxladığı Əlahiddə Ümumqoşun Ordunun döyüş hazırlığının yüksəldilməsi ilə yanaşı, lazımi şəraitin yaradılması da ordu quruculuğu istiqamətində aparılan məqsədyönlü tədbirlərin nəticəsi kimi özünü göstərir. Çəkiliş heyətimizlə birlikdə yeni yaradılan komando hərbi hissələrindən birindəyik. Burada şəxsi heyət üçün yaradılmış şərait, nizam-intizam və gündəlik hazırlıq prosesi diqqətimizi çəkir.



Mayor Emin Quliyevlə həmsöhbət oluruq. Emin Quliyev Heydər Əliyev adına Hərbi Liseyin məzunudur. Vətən müharibəsində Talış-Suqovuşan istiqamətində "N" hərbi hissənin bölük komandiri vəzifəsində xidməti vəzifəsini icra edib. 2022-ci ildə "Qisas" əməliyyatında, 2023-cü il lokal xarakterli antiterror əməliyyatında Ağdam, Ağdərə istiqamətində yüksəkliklərin əldə olunmasında heyəti ilə birgə şücaət göstərib. "Vətən uğrunda", "Şücaətə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

"Qalib orduda xidmət etmək qürurdur. Vətən müharibəsindən sonra biz bunun bir daha şahidi olduq. Zəfər çalmış ordu sıralarında xidmət etmək üçün müraciətlər, hərbi məktəblərə qəbul göstəriciləri sevindiricidir. Biz də, öz növbəmizdə, gənc zabitlər, gizirlər və əsgərlərimizlə bu istiqamətdə qazandığımız təcrübəni bölüşürük. Tez-tez gənclərlə də görüşlər keçirilir. Onlara ilkin hərbi biliklər aşılanır. Bu görüşlər, eyni zamanda hansısa gəncin gələcəkdə peşə seçiminə də müsbət təsirini göstərmiş olur", – deyə mayor Emin Quliyev qeyd edir.

Komando bölmələrinin yaradılmasının müharibədən sonrakı dövrə təsadüf etdiyini bildirən Emin Quliyev bunun döyüş təcrübəsindən irəli gələn zərurət olduğunu deyir: "Piyada və motoatıcı bölmələrin öz tapşırıqları var. Komando bölmələrinin tapşırıqları isə tamamilə fərqlidir. Yüksəkliklərin əldə olunması, müəyyən dərinliklərə doğru irəliləmək üçün çevik bölmələr lazım idi. "Qisas" əməliyyatı və 2023-cü ilin antiterror tədbirləri komando bölmələrinin hazırlığının əhəmiyyətini bir daha göstərdi".

Mayor Emin Quliyev bildirir ki, gündəlik fəaliyyət döyüş hazırlığı proqramına uyğun qurulur. Atəş, taktiki və fiziki hazırlıq əsas istiqamətlərdir. Komando bölmələrində taktiki məşğələlərə xüsusi üstünlük verilir. Dağlıq və mürəkkəb relyefdə, müxtəlif iqlim şəraitində fəaliyyət qabiliyyəti, fiziki və taktiki hazırlıq hərbi qulluqçular üçün əsas tələblərdəndir.



Digər həmsöhbətimiz kapitan Bəxtiyar Əsədovdur. Vətən müharibəsi iştirakçısı olan zabit "Şücaətə görə", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Hazırda xidmətini yeni yaradılan komando hərbi hissəsində davam etdirən kapitan deyir: "Ağrılı-acılı, eyni zamanda qürur dolu müharibə xatirələri çoxdur. Amma Ali Baş Komandanın hərbi hissəmizə Döyüş bayraqlarını təqdim etməsi mənim üçün unudulmaz ana çevrildi. Və bu an fotoda əbədiləşdi".

Baş gizir Zəfər Cəfərovun sözləri isə döyüş xatirələrinin insan yaddaşında necə yaşadığını göstərir: "Döyüşdən danışmaq döyüşdə olmaqdan daha çətindir. O yaşadığımız anları xatırlamaq, yaşadığımız sevinc hisslərini bölüşmək, ifadə etmək olduqca çətindir. Döyüşdə qazandığımız təcrübə, qatıldığımız təlimlər gündəlik fəaliyyət gücümüzü daha da artırıb". Günnüt əməliyyatının iştirakçısı olan Zəfər Cəfərov həmin dövrdə Qızılqaya yüksəkliyindən Laçın istiqamətinə baxdıqlarını xatırlayır: "İki il sonra artıq müzəffər Ordunun əsgərləri kimi Laçın dəhlizində qürurla addımlayırdıq. Qarabağda gedən quruculuq işlərini böyük şövqlə izləyirik. Bütün bu hadisələr göstərir ki, biz güclü dövlətik".

Baş çavuş Şahin Həsənov və çavuş Vasif Əmirov da Şuşaya qədər şərəfli döyüş yolu keçən hərbçilərdəndir. Böyük zəfər yolu keçmiş orduda xidmət etmək onlar üçün qürur və şərəfdir: "İstənilən tapşırığı hər zaman yerinə yetirməyə hazır və qadirik. Komando bölməsində xidmət etmək isə üzərimizə əlavə məsuliyyət qoyur. Daha çevik, daha güclü və hər zaman döyüşə hazır olmalıyıq", – deyirlər.

Naxçıvanda yeni əməliyyat (komando) hərbi hissələrinin yaradılması Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafının göstəricilərindən biridir. Bu proses yalnız yeni hərbi hissələrin formalaşdırılması deyil, həm də peşəkar şəxsi heyətin hazırlanması, döyüş təcrübəsinin ötürülməsi, hərbi infrastrukturun yenilənməsi və müasir texnologiyaların tətbiqi ilə müşayiət olunur. Dövlət başçısının diqqət və qayğısı ilə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Əlahiddə Ümumqoşun Ordunun qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsinə imkan yaradır. Vətən müharibəsində qazanılan Zəfər və suverenliyimizin tam bərpası yeni reallıqlar yaradıb. Bu reallıqlar fonunda güclü ordu, peşəkar hərbi qulluqçu və müasir hərbi infrastruktur dövlətimizin təhlükəsizliyinin əsas təminatlarından biri olaraq qalır. Naxçıvanda yaradılan yeni komando hərbi hissələri də bu gücün mühüm elementlərindən biri kimi Azərbaycan Ordusunun inkişaf tarixində öz layiqli yerini tutacaq.



**Ruhiyyə RƏSULOVA**

# Ali Məclisin sədr müavini Arzu Abdullayev CORLEAP-ın illik iclasında çıxış edib






Ali Məclisin sədr müavini Arzu Abdullayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 14-15 sentyabrda Moldova Respublikasının Kişinyov şəhərində keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə Yerli və Regional Hakimiyyətlər Konfransının (CORLEAP) 15-ci illik iclasında iştirak edib.

Gündəliyin ilk məsələsi “Şərq Tərəfdaşlığı ölkələrində xarici informasiya manipulyasiyası və müdaxiləsinə qarşı mübarizə və yerli və regional medianın təşviqi” mövzusuna həsr olunub. Müzakirələrdə bir sıra siyasətçilər və ekspertlərlə yanaşı, Azərbaycan nümayəndə heyətinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev də çıxış edib. Arzu Abdullayev çıxışında xarici informasiya manipulyasiyası və müdaxiləsi ilə mübarizədə məlumatlı və dayanıqlı cəmiyyətin formalaşdırılmasının, media və rəqəmsal savadlılığın artırılmasının, yerli və regional medianın gücləndirilməsinin, eləcə də süni intellektin yaratdığı yeni çağırışlar qarşısında yerli idarəetmə orqanlarının institusional imkanlarının artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra “Şərq Tərəfdaşlığı ölkələrində yerli və regional səviyyədə qərarların formalaşdırılması prosesinin gücləndirilməsi” mövzusunda debat və “Yerli və regional səviyyədə dövlət idarəçiliyi üzrə Şərq Tərəfdaşlığı Akademiyası (EPAPA)” pilot layihəsinin təqdimatı keçirilib.

Qeyd edək ki, 2011-ci ildə Polşanın Poznan şəhərində təsis edilən Şərq Tərəfdaşlığı üzrə Regional və Yerli Hakimiyyətlər Konfransı (CORLEAP) Avropa İttifaqı-Şərq Tərəfdaşlığı çərçivəsində yerli və regional hakimiyyət orqanlarını bir araya gətirən platforma kimi fəaliyyət göstərir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Həkim, müəllim, dövlət xadimi, mədəniyyət hamisi – xatirələrdə yaşayan Əziz Əliyev

**Prezident İlham ƏLİYEV:**

*“Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir.”*

Həyatda tutduğu mövqedən, qazandığı statusdan asılı olmayaraq, məramı xoş niyyət, insanlara hörmət, məqsədi xalqa və millətə təmənnasız sevgi olan şəxsiyyətlər, illər keçdikcə daha çox sevilir, xidmətləri ilə daha da ucalırlar. Çünki tutduğu peşənin məsuliyyətini dərk etmək, cəmiyyətə nəcib əməllərlə, təmənnasız yaxşılıqlarla fayda verəcəyini anlamaq, bunu bütün varlığınla duymaq böyük missiyadır. Ömür yolu xalqın taleyi ilə bütövləşən, insanların məhəbbəti ilə məna tapan, həyatı və fəaliyyəti ilə milli ziyalılıq ənənəmizin ən parlaq nümunəsini yaradan belə şəxsiyyətlərdən biri də Azərbaycan səhiyyəsinin və ictimai-siyasi həyatının görkəmli nümayəndəsi, həkim, müəllim, dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevdir.

1897-ci ildə İrəvan quberniyasının Hamamlı kəndində dünyaya göz açan Əzizin çətinliklərlə, məhrumiyyətlərlə dolu uşaqlıq, yeniyetməlik və gənclik illəri doğma İrəvanla bağlı olmuşdu. Ancaq tale elə gətirmişdi ki, Əziz Əliyevin həyatı yalnız doğulduğu İrəvanı əhatə etməmişdi. 65 illik həyat hekayəsinin “ön sözü” İrəvanla başlamış, keşməkeşli olduğu qədər məhsuldar bir yol qət edərək Cənubi Azərbaycanı, Dağıstanı, Naxçıvan Muxtar Respublikasını dolaşaraq tarixi bir şəxsiyyətin bütöv bir fəaliyyətini əhatə edən zəngin epoxaya çevrilmişdi.

İlk təhsilini İrəvandakı “Rustatar” məktəbində alan Əziz Əliyev 1917-ci ildə İrəvan gimnaziyasını qızıl medalla bitirmişdi. Uşaqlıqdan həkim olmaq arzusu ilə yaşayan gəncin qarşısında böyük bir yol açılırdı. Lakin bunun üçün istedad və azmlə yanaşı, maddi dəstəyə də ehtiyacı vardı. Məhz həmin dövrdə Azərbaycanın böyük xeyriyyəçisi və maarifpərvəri Hacı Zeynalabdin Tağıyevin istedadlı gənclərin təhsilinə göstərdiyi diqqət Əziz Əliyevin taleyində mühüm dönüş nöqtəsinə çevrildi. Belə ki, 1917-ci ildə Tağıyevin maddi yardımı sayəsində Əziz Əliyev Petroqrada – indiki Sankt-Peterburqa gedərək dünyanın ən məşhur tibb ocaqlarından biri sayılan Hərbi Tibb Akademiyasına daxil oldu. Bu fakt illər sonra Prezident İlham Əliyevin Hacı Zeynalabdin Tağıyevin abidəsinin açılışı mərasimindəki çıxışında da xüsusi qeyd edilmişdir: ***“...Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu, təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur”.***

1918-ci ildə doğma İrəvana qayıdan Əziz Əliyev burada ermənilərin törətdiyi soyqırımların şahidi olmuş, bu faciələr qarşısında doğmalarını qorumaq məcburiyyətində qalaraq ailəsini böyük çətinliklə Naxçıvanın Şərur bölgəsinə gətirmişdi. Bir müddət burada məskunlaşdıqdan sonra Şahtaxtı kəndinə köçmüşdü. Lakin tale elə gətirir ki, Andranikin başçılığı ilə silahlanmış erməni quldur dəstələri Naxçıvana da silahlı basqınlar etməyə, müsəlman əhalini kütləvi şəkildə məhv etməyə başlayır. Ailə buna görə Arazın o tayına pənah aparır. Bir neçə ay Ərəblər kəndində məskunlaşdıqdan sonra ailə yenidən Naxçıvana qayıdır.

1921-ci ildə yenidən Şahtaxtıya qayıdan və 2 ilə yaxın bir müddətdə orta tibb işçisi və həkim köməkçisi kimi fəaliyyət göstərən Əziz Əliyev 1923-cü ildə ailəsi ilə birlikdə Naxçıvandan Bakıya gələrək qəbul imtahanlarını uğurla verib Bakı Dövlət Universitetinin Tibb fakültəsinə daxil oldu. 1927-ci ildə ali tibb təhsilini əla qiymətlərlə başa vuraraq Xalq Komissarları Şurasının göndərişi ilə elmi-pedaqoji fəaliyyətə başladı. Beləcə, İrəvanın ziyalı mühitində formalaşan, erkən yaşlarından həyatın ağır sınaqları ilə üzləşən Əziz Əliyev bütün bu çətinliklərdən keçərək böyük elm və tibb yoluna qədəm qoydu. Qarşıda onu yalnız uğurlu həkimlik və elmi fəaliyyət deyil, həm də Azərbaycanın ictimai-siyasi həyatında mühüm iz buraxacaq böyük dövlətçilik yolu gözləyirdi.



Əziz Əliyev – 130

Əziz Əliyevin 65 illik ömür yolunda ona yoldaşlıq etmiş görkəmli ziyalıların xatirələrindən belə aydın olur ki, Əziz Əliyev tutduğu vəzifələrdən daha çox qətiyyətli addımları, insanlara münasibəti və çətin vəziyyətlərdə qəbul etdiyi qərarları ilə böyük cəsarət və fədakarlıq nümayiş etdirən bütöv bir şəxsiyyət idi.

Professor Mustafa Topçubaşov “Səməndər quşu” adlı xatirələrində səhiyyə məsələlərinin müzakirə olunduğu bir kollegiya iclasından da söz açaraq Əziz Əliyevin göstərdiyi fədakarlığı və nümunəvi addımı diqqətə çəkir: “Ucqar rayon kəndində əməliyyat zamanı artıq qan itirmiş hamilə qadın dünyasını dəyişmişdi. Əsas səbəb isə xəstəxanada qan əvəzedicisinin olmaması idi. İclas zamanı Əziz müttəhim kürsüsündə dayanan həkimə üzünü tutaraq ondan bu vaxta qədər xəstələrə kömək məqsədilə qan verib vermədiyini soruşdu. O bu sual qarşısında özünü itirdi və bu zamana qədər donor olmadığını, heç bir zaman qan vermədiyini dilə gətirdi. Əziz Əliyev onun bu addımını qəti şəkildə pislədi və məsələnin həllinə nail olmaq üçün həmin cərrahı özü ilə Qanköçürmə Mərkəzinə apardı. Burada onun ehtiramla qarşılanmasından və həkimlərlə aralarında olan münasibətdən belə aydın oldu ki, sən demə, Əziz Əliyev illərdir, həmin mərkəzdə donor imiş. O, mütəmadi olaraq burada ehtiyacı olan xəstələrə qan verir, bu addımı ilə bütün peşə yoldaşlarına nümunə olmağa çalışırdı. Hətta Əziz həmin həkimin timsalında bütün peşə yoldaşlarına üzünü tutaraq deyirdi ki: “Xalq səhiyyəsində işləyən adam yeri gələndə xəstələri yolunda qanından keçməyi də bacarmalıdır”.

Əziz Əliyevin dövlətçilik fəaliyyətinin ən mühüm səhifələrindən biri də Dağıstanla bağlıdır. O, 1942-ci ildə Dağıstana rəhbər təyin olunanda respublika həm müharibənin ağır yükü altında idi, həm də siyasi və sosial baxımdan ciddi təhlükələrlə üz-üzə qalmışdı. Belə bir şəraitdə qarşısında yalnız dövlət idarəçiliyini həyata keçirmək deyil, dağlı xalqları vahid məqsəd ətrafında birləşdirmək, arxa cəbhəni möhkəmləndirmək və respublikanın gələcəyini qorumaq vəzifəsi dayanırdı. Dağıstanlıların xatirələrində yaşayan yaddaş tarixçəsi sübut etdi ki, Əziz Əliyev bu ağır və məşəqqətli işin öhdəsindən uğurla gələrək adını tarixə həkk etməyi bacardı. Əziz Əliyev Dağıstanda yerli əhaliyə qarşı həyata keçirilən siyasi repressiyalara son qoyulmasına, dağıstanlılardan ibarət milli hərbi hissələrin təşkil olunmasına, yerli hakimiyyət orqanlarına dağıstanlıların təyin edilməsinə nail oldu. Görkəmli dövlət xadiminin siyasi biliyi və uzaqgörənliyi sayəsində dağıstanlılar bir çox digər xalqlar kimi sürgün olunmaqdan xilas ola bildilər.

Təsadüfi deyil ki, Dağıstanın Xalq şairi Rəsul Həmzətov öz xatirələrində Əziz Əliyevin Dağıstan həyatından, o cümlədən gənclərə göstərdiyi diqqət və qayğıdan bəhs edərək yazırdı: “O vaxtlar mənim ilk şeir kitabçam çapdan çıxmışdı. Əziz Əliyev bundan xəbərdar idi. İştirak etdiyimiz bir məclisdə məni təbrik etdi. Onun xahişi ilə bir dağlı rəqsi oynadım; məmnun qaldı, şeir oxutdu – təriflədi”. Bu münasibət Əziz Əliyevin yalnız dövlət idarəçiliyinə deyil, gənclərin formalaşmasına, elmin və mədəniyyətin inkişafına da xüsusi diqqət göstərdiyinin ən bariz nümunəsidir.

İncəsənəti və mədəniyyəti ruhun qidası, sağlamlığın mayası hesab edən Əziz Əliyev haqqında yaxın dostu Xalq şairi Süleyman Rüstəmin də olduqca maraqlı bir xatirəsi var. Süleyman Rüstəm yazırdı ki, Əziz Əliyev Cənubi Azərbaycanda olduğu illərdə mədəniyyət sahəsinə böyük diqqət göstərir, Bakıda nümayiş olunan filmlərin İranda göstərilməsinə şərait yaradırdı. O çalışırdı ki, bir dildə danışan, bir soy-kökə mənsub olan həmvətənlər doğma adət-ənənələrindən ayrı düşməsin. Bu hər şeydən əvvəl dövlət xadimi kimi Əziz Əliyevin xalqın milli-mənəvi yaddaşının formalaşmasına, milli özünüdərk prosesinin inkişaf etməsinə verdiyi dəyərin ən bariz nümunələrindən biri idi...

Adətən, həyatda uğur qazanmış kişilər haqqında danışarkən onların daim arxa-dayağı olan, hər qərarına anlayışla yanaşan, çətinliklər qarşısında onunla çiyin-çiyinə addımlayan qadınların da olduğunu görürük. Əziz Əliyev, bu mənada, bəlkə də, ən xoşbəxt şəxsiyyətlərdən idi ki, həyatını kübar və zərif bir qadınla – Leyli xanımla birləşdirmişdi. Dostlarının xatirələrində qeyd olunur ki, Leyli xanım Əziz Əliyevin xidmətlərində daim yanında olan sadiq silahdaş, sevincində və qəmində ona həmdəm olan qayğıkeş həyat yoldaşı idi.

Fəaliyyəti və həyat kredosu ilə Azərbaycan ziyalılıq məktəbində böyük izlər qoyan, peşəsinə və xalqına olan sədaqəti ilə seviib-seçilən Əziz Əliyevin zəngin irsi dövlətimizin diqqətindən kənarda qalmayıb, onun fəaliyyəti yüksək qiymətləndirilib. Prezident İlham Əliyev bu il avqustun 20-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: ***“O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir”.***

Əziz Əliyevin ömür yoluna nəzər saldıqca bir həqiqət daha aydın görünür: onun irsini yaşadan yalnız gördüyü işlər və qazandığı nailiyyətlər deyil, həm də insanlara göstərdiyi diqqət, etimad və qayğı, xalqına və Vətəninə xidmətə söykənən həyat mövqeyidir.

Əziz Əliyev 1962-ci ildə, 65 yaşında dünyasını dəyişdi. Bu gün onun I Fəxri xiyabanda yerləşən məzarı ailə üzvləri, doğmaları ilə yanaşı, onu sevən yüzlərlə Vətən övladının ziyarət yerinə çevrilib. Həkim, müəllim, dövlət xadimi, mədəniyyət hamisi – Əziz Əliyevin adı artıq yalnız bir ömrü deyil, xalqa xidmət nümunəsinin yaddaşdakı ifadəsidir.

**Məcid RƏŞADƏTOĞLU**

# Bir məktəbin qapısında başlayan yeni hekayə: Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb



Bilik günündə yolumuz Nehrəmə düşür. Qəsəbəyə yaxınlaşdıqca küçələrdəki hərəkətlilik diqqətimizi çəkir. Məktəbli formalarında uşaqlar, onların ardınca tələsən valideynlər, əllərində güllər... Sanki bu gün hamının istiqaməti eynidir. Nehrəm qəsəbəsində inşa olunmuş 3 nömrəli tam orta məktəbin binası qapılarını yenidən uşaqların üzünə açır.

Həyətə daxil olan kimi gözə ilk dəyən məktəb binası deyil, uşaqlar olur. Kimisi atasının əlindən yapışıb ətrafa baxır, kimisi dostunu axtaran gözlərlə izdihamın içində boylanır, kimisi isə yeni formasını düzəldə-düzəldə özünü artıq böyük məktəbli kimi hiss edir. Bir az aralıda anasının əlini buraxmaq istəməyən birincinin baxışlarında tərəddüd, yanında dayanmış başqa bir uşağın üzündə isə səbirsizlik görünür. Eyni səhər, eyni məktəb, amma hər uşaq üçün tamam başqa bir hekayə…

Bəlkə də, onlar bu günün Nehrəm üçün nə qədər fərqli olduğunu hələ anlamırlar. Onlar üçün bu səhər yeni çanta, ilk zəng, ilk müəllim və yeni dostlar deməkdir. Amma illər sonra geriyə baxanda bu günün yaddaşlarında başqa bir adı olacaq: məktəb həyatlarının başladığı gün.

Biz də uşaqların məktəbin qapısından ilk keçidini, müəllimlərin onları qarşılamasını, valideynlərin üzündəki sevinci, illər sonra xatırlanacaq bu günün ilk anlarını yaxından izlədik.

Məktəbin həyətində gözlərimiz bir az da həyəcanlı görünən bir anaya sataşır. Birinci sinfə qədəm qoyan qızı Məryəmin yanında dayanıb. Üzündəki sevinc sözlərindən əvvəl danışır. Bu gün onun üçün də adi bir gün deyil – övladının məktəbli olduğu, həyatının yeni bir mərhələsinə qədəm qoyduğu gündür. Nuray Neymətova qızının ilk məktəb gününü böyük sevinclə qarşıladığını deyir. Məryəmin məktəbə həvəslə gəlməsi, ilk müəllimi və sinfi ilə tanış olmaq arzusu ananın sevincini daha da artırır. Onun sözlərindən hiss olunur ki, bu günə qızının gələcəyinə açılan ilk qapı kimi baxır.

Məryəmin isə artıq bir arzusu var. O böyüyəndə müəllim olmaq istəyir. Bu gün ilk dəfə məktəbli formasında sinif otağına daxil olan balaca qızın gələcəklə bağlı arzusu, bəlkə də, elə həmin sinifdə başlayır.

Məktəbin binasına daxil olanda bizi həyətdəki səs-küydən tamam fərqli bir ab-hava qarşılayır. Dəhlizlərdə dərsə tələsən şagirdlər, siniflərdən gələn səslər, müəllimlərin uşaqlara dediyi xoş sözlər... Elə bu mənzərənin içində qarşımıza gülərüz bir şagird çıxır. Dördüncü sinifdə oxuyan Zəhra Həsənova artıq ilk gündən yeni məktəbi özünə doğma hiss etməyə başlayıb. Söhbətə başlayanda üzündəki təbəssüm də, sözlərindəki həvəs də bunu hiss etdirir. Sanki bizi yeni məktəbinə qonaq gələn biri kimi yox, çoxdan tanıdığı biri qarşılayır.

Zəhra deyir ki, yeni məktəbi çox bəyənir. Sinif otağını, məktəbin ümumi görünüşünü və burada yaradılan şəraiti sevdiyini söyləyir. Onun üçün ən maraqlısı isə məktəbin yeniliyi ilə yanaşı, burada keçəcək günlərin gətirəcəyi yeniliklərdir. Yeni dərs ili onun üçün, sadəcə, başqa bir sinifdə oxumaq deyil, fərqli bir mühitdə yeni xatirələr toplamaq deməkdir.

Söhbət etdikcə hiss olunur ki, Zəhra artıq bu məktəbin ilk gününün həyəcanını geridə qoyub. İndi o, qarşıdakı dərslərin, tənəffüslərin, dostlarla keçiriləcək vaxtın sevincini yaşayır. Bəlkə də, illər sonra bu günün ən maraqlı xatirəsi məktəbin açıldığı ilk gün yox, həmin gün sinif qapısından içəri daxil olub özünü yeni məktəbin sakini kimi hiss etdiyi an olacaq.

Zəhra ilə sağollaşanda isə sinifdəki digər uşaqların səsi yenidən eşidilir. Dərs davam edir, amma bu yeni məktəbdə artıq həyat da öz axarına düşür. Bir az əvvəl yeni olan sinif otaqları uşaqların səsi ilə yavaş-yavaş öz yaddaşını yaratmağa başlayır.

Zəhranın sinfindən ayrılıb dəhlizə çıxırıq. Qarşımızda bir-birinin ardınca düzülən sinif qapıları, hər qapının arxasından gələn fərqli səslər var. Bir yerdə uşaqların gülüşü eşidilir, başqa bir sinifdən müəllimin səsi gəlir. Elə bu rəngarəngliyin içində növbəti qapını açırıq. Bu dəfə qarşımızda 41 illik müəllimlik yolunun izlərini daşıyan Həlimə Quliyeva dayanır. İllərdir, ibtidai sinif şagirdləri ilə işləyən müəllimə üçün uşaqların ilk addımlarına şahidlik etmək artıq həyatının ayrılmaz hissəsinə çevrilib.







Hər yeni dərs ili onun üçün bir qədər fərqli başlasa da, sinfə daxil olan uşaqların gözlərindəki həmin ilk həyəcan dəyişmir.

Həlimə xanım deyir ki, müəllimlik yalnız uşaqlara hərfləri, rəqəmləri, oxumağı və yazmağı öyrətməkdən ibarət deyil. İbtidai sinif müəllimi uşağın məktəblə, öyrənməklə, zəhmətlə ilk münasibətini formalaşdıran insanlardan biridir. Bu səbəbdən hər bir uşağa göstərilən diqqətin, deyilən hər bir sözün, verilən hər bir dəstəyin onun gələcəyində iz buraxdığına inanır.







İl ərzində neçə-neçə uşağın ilk müəllimi olub. Bu gün onların arasında müxtəlif peşələrin sahibləri, fərqli yollar seçən insanlar var. Amma hər birinin həyatında bir vaxtlar ilk dəfə əlindən tutub hərf yazdıran, səhvlərinə səbirlə yanaşan, kiçik uğurlarına böyük sevinclə baxan bir ibtidai sinif müəllimi dayanıb.








İndi isə Həlimə müəllim yeni məktəbdə yeni nəsillə yoluna davam edir. Qarşısında yenə balaca əllər, maraqlı baxışlar, saysız suallar var. O bu uşaqların yalnız bu gününü deyil, sabahını düşünür. Çünki bu sinif otağında verilən ilk biliklərin, formalaşan ilk vərdişlərin illər sonra onların seçəcəyi yolda öz payı olacaq.

Bəlkə də, müəllimliyin ən böyük mənası elə budur: öz adını böyütdüyün uşaqların həyatında görmək. Bu gün onun qarşısında oturan uşaqlar hələ gələcəklərinin necə olacağını bilmirlər. Amma müəllimləri artıq həmin gələcəyə hazırlaşmaları üçün əllərindən gələn hər şeyi etməyə başlayıb.

Məktəbin dəhlizlərindən keçib həyətə çıxanda bir neçə saat əvvəl bu qapıdan içəri daxil olan uşaqların səsi artıq arxamızda qalır. Biz isə Nehrəmdən ayrılarkən bir daha geriyə baxırıq. Dörd il əvvəl yarımçıq qalan bir hekayənin yerində bu gün uşaqların ilk məktəb xatirələri yazılır.

Bəlkə də, illər sonra bu məktəbin məzunları ilk zəngin səsini, ilk müəllimlərini, ilk siniflərini xatırlayacaqlar. Bəlkə də, bu gün onlar üçün adi görünən anlar zaman keçdikcə ən doğma xatirələrə çevriləcək. Amma bu gün üçün bir həqiqət var: Nehrəm qəsəbəsində 3 nömrəli tam orta məktəbin qapıları yenidən açılıb, siniflər uşaqların səsi ilə dolub və burada yeni hekayələrin ilk səhifəsi yazılır.

✍ **Zəhra VƏLİYEVA**



# Üzeyir Hacıbəyli: milli musiqi düşüncəmizin böyük memarı

Azərbaycan musiqi mədəniyyətinin tarixində elə şəxsiyyətlər var ki, onların yaradıcılıq irsini yalnız bir sənət sahəsinin çərçivəsində dəyərləndirmək mümkün deyil. Üzeyir Hacıbəylinin adı da məhz belə böyük mədəni hadisə ilə bağlıdır.

Azərbaycan professional musiqisinin tarixindən, milli bəstəkarlıq məktəbinin təşəkkülündən, musiqi təhsilinin və musiqişünaslığın formalaşmasından danışarkən, ilk növbədə, Üzeyir Hacıbəylinin adı yada düşür. O, Azərbaycan musiqisinin klassiki, milli opera sənətimizin banisi, görkəmli bəstəkar, alim, dramaturq, pedaqoq və ictimai xadim kimi bütöv bir dövrün simasına çevrilmişdir.

Əslində, XX əsr Azərbaycan musiqi mədəniyyətini Üzeyir Hacıbəylinin yaradıcılığından kənarda təsəvvür etmək mümkün deyil. Onun sənət yolu Azərbaycan xalq musiqisinin zəngin ənənələri ilə professional bəstəkarlıq yaradıcılığının qovuşduğu mühüm tarixi mərhələni əks etdirir. Məhz bu baxımdan Üzeyir Hacıbəyli yaradıcılığı yalnız ayrı-ayrı əsərlərin məcmusu deyil, milli musiqi düşüncəsinin yeni mərhələyə yüksəliş tarixidir.



Bəstəkarın yaradıcılığında xalq musiqisi xüsusi əhəmiyyət daşıyırdı. O, milli musiqinin melodik, intonasiya və janr xüsusiyyətlərini dərindən mənimsəyərək onları professional bəstəkarlıq üslubunun imkanları ilə əlaqələndirmişdi. Mahnı, rəqs, muğam və aşıq yaradıcılığının üslub xüsusiyyətlərindən yaradıcı şəkildə faydalanan sənətkar milli musiqinin mahiyyətini qorumaqla yanaşı, onun yeni bədii ifadə imkanlarını da ortaya qoydu.

Təsadüfi deyil ki, Üzeyir Hacıbəylinin yaratdığı sənət ənənəsi sonralar "Üzeyir bəy məktəbi" kimi səciyyələndirildi. Bu məktəb təkcə müəyyən bəstəkarlıq prinsiplərini deyil, milli musiqiyə münasibətin bütöv bir fəlsəfəsini ifadə edirdi.

1908-ci ildə səhnəyə qoyulan "Leyli və Məcnun" operası Azərbaycan musiqi tarixində yeni bir səhifə açdı. Əsər Azərbaycan professional opera sənətinin əsasını qoymaqla yanaşı, bütün Şərq opera mədəniyyəti baxımından da mühüm hadisəyə çevrildi.

Üzeyir Hacıbəyli bu əsərin ideyasını uzun müddət qəlbində və düşüncəsində yaşatmışdı. Məhəmməd Füzulinin ölməz poeması onun üçün yalnız ədəbi mənbə deyildi. Bəstəkar Füzulinin poetik dünyasına dərindən nüfuz etməklə yanaşı, yeni yaratdığı opera janrının səhnə və dramaturji tələblərini də nəzərə alırdı. Beləliklə, klassik Şərq poeziyasının böyük nümunəsi ilə yeni professional musiqi janrı arasında bənzərsiz sənət körpüsü yarandı.

"Leyli və Məcnun"dan sonra "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm", "Harun və Leyla" kimi muğam operaları meydana gəldi. Bu əsərlər Azərbaycan opera sənətinin ilkin mərhələsinin formalaşmasında mühüm rol oynadı və milli teatrın inkişaf istiqamətlərini müəyyənləşdirdi.

Lakin Üzeyir Hacıbəylinin yaradıcılıq yolu bununla məhdudlaşmırdı. O, milli musiqinin imkanlarını daha geniş miqyasda düşünür və Azərbaycan bəstəkarlıq məktəbinin qarşısında yeni üfüqlər açmağa çalışırdı.

Bu axtarışların ən parlaq nəticəsi 1937-ci ildə səhnəyə qoyulan "Koroğlu" operası oldu. "Koroğlu" Üzeyir Hacıbəylinin yaradıcılıq yolunun ən yüksək mərhələlərindən biri olmaqla Azərbaycan opera sənətinin zirvəsinə çevrildi. Bəstəkar bu əsərdə Avropa opera sənətinin professional prinsiplərini Azərbaycan milli musiqisinin üslub xüsusiyyətləri ilə üzvi şəkildə birləşdirdi.

"Koroğlu"nun əhəmiyyəti yalnız onun musiqi dilinin mükəmməlliyində deyil. Əsər, həmçinin milli musiqi təfəkkürünün professional bəstəkarlıq texnikası ilə hansı yüksək səviyyədə sintez oluna biləcəyini nümayiş etdirdi. "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər keçilən yol onun üçün yalnız Azərbaycan operasının tarixi deyil, həm də öz yaradıcılıq yolunun tarixidir.

Bu iki əsəri – "Leyli və Məcnun"u və "Koroğlu"nu bir-birindən ayrı düşünmək çətindir. Birincisi milli opera sənətimizin başlanğıcını, ikincisi isə onun professional yetkinliyini təmsil edir. Sanki bəstəkarın yaradıcılıq yolu bu iki əsər arasında böyük bir tarixi və estetik məsafə qət etmişdir.

Üzeyir Hacıbəyli Azərbaycan musiqi tarixində musiqili komediya janrının da yaradıcılarından biri kimi xüsusi yer tutur. "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi əsərlərində bəstəkar dövrün sosial münasibətlərinə, cəmiyyətin problemlərinə satirik və yumoristik münasibət bildirmiş, musiqili teatrın imkanlarından geniş istifadə etmişdir.

Lakin onun sənət dünyası yalnız opera və musiqili teatrla məhdudlaşmırdı. "Çahargah" və "Şur" fantaziyaları, "Aşıqsayağı" triosu, müxtəlif mahnılar, Nizami Gəncəvinin sözlərinə yazılmış "Sənsiz" və "Sevgili canan" romansları bəstəkarın irsinin nə qədər zəngin olduğunu göstərir. Azərbaycan Respublikasının Dövlət Himninin musiqisinin də Üzeyir Hacıbəyliyə məxsus olması onun yaradıcılığının milli-mənəvi həyatımızdakı xüsusi yerini bir daha təsdiqləyir.

Üzeyir Hacıbəylinin ən böyük xidmətlərindən biri isə musiqi sənətini yalnız yaradıcılıq fəaliyyəti kimi deyil, həm də maarifçilik və milli mədəni quruculuq missiyası kimi dərk etməsi idi.

1921-ci ildə Azərbaycanda, eləcə də müsəlman Şərqində ilk ali musiqi təhsili ocağının – konservatoriyanın yaradılmasında onun müstəsna xidmətləri olmuşdur. Musiqi məktəbinin və musiqi texnikumunun təşkili də onun yorulmaz fəaliyyətinin nəticələrindən idi.

Bu gün Azərbaycan musiqi təhsilinin çoxpilləli sistemi, professional ifaçılıq və bəstəkarlıq məktəbi haqqında danışarkən həmin tarixi başlanğıcları unutmamaq lazımdır. Çünki Üzeyir Hacıbəyli üçün musiqinin inkişafı ilə musiqi təhsilinin inkişafı bir-birindən ayrı məsələlər deyildi.

Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətinə ən böyük töhfələrindən biri də onun elmi-nəzəri irsidir. O, Azərbaycan xalq musiqisini yalnız bəstəkar kimi deyil, alim kimi də öyrənmişdir. Uzun illər apardığı tədqiqatların nəticəsi olaraq meydana çıxan "Azərbaycan xalq musiqisinin əsasları" əsəri milli musiqi nəzəriyyəsinin inkişafında mühüm mərhələ təşkil edir. Beləliklə, Üzeyir Hacıbəyli bir tərəfdən xalq musiqisinin zənginliyindən bəhrələnir, digər tərəfdən isə bu musiqinin qanunauyğunluqlarını elmi şəkildə araşdırırdı.

Xalq mahnılarının nota köçürülməsi, xalq çalğı alətləri orkestrinin təşkili, milli musiqi alətlərinin simfonik musiqinin imkanları ilə əlaqələndirilməsi istiqamətində gördüyü işlər onun milli musiqi mədəniyyətinə kompleks yanaşmasının göstəricisidir.

Məhz buna görə Üzeyir Hacıbəylini yalnız "Azərbaycan operasının banisi" adlandırmaq onun şəxsiyyətinin miqyasını tam ifadə etmir. O eyni zamanda milli musiqi düşüncəsinin sistemləşdiricisi və Azərbaycan professional musiqi mədəniyyətinin memarıdır.

Üzeyir Hacıbəyli yaradıcılığının gücü ondadır ki, onun əsərləri yalnız yarandığı dövrün mədəni hadisələri kimi tarixdə qalmayıb. Bu musiqi bu gün də yaşayır, səslənir və yeni nəsillərlə ünsiyyət qurur.

Böyük sənətkarın dövlət və xalq tərəfindən yüksək qiymətləndirilməsi də onun Azərbaycan mədəniyyətindəki müstəsna mövqeyini təsdiqləyir. O, müxtəlif fəxri ad və dövlət mükafatlarına layiq görülmüş, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Bu gün Üzeyir Hacıbəylinin əsərlərinə yenidən müraciət etdikcə bir həqiqət daha aydın görünür: onun yaratdığı musiqi məktəbi yalnız keçmişin yadigarı deyil. Bu məktəb Azərbaycan musiqi mədəniyyətinin bu günü və gələcəyi ilə də sıx bağlıdır.

Çünki Üzeyir Hacıbəyli Azərbaycan musiqisinə yalnız əsərlər bəxş etmədi. Azərbaycan musiqisində sonralar inkişaf edən bir çox istiqamətin kökündə onun başladığı böyük proses – milli musiqi təfəkkürünün professional sənət prinsipləri ilə qovuşması dayanır.

Bu baxımdan, Üzeyir Hacıbəylinin yaradıcılıq irsinə hər yeni müraciət, əslində, milli musiqi tariximizin başlanğıcına, milli mədəniyyətimizin formalaşma prosesinə və özümüzü sənət vasitəsilə dərk etməyimizin tarixçəsinə yenidən nəzər salmaq deməkdir.

Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin tarixində, sadəcə, bir ad deyil, həmin tarixin başlanğıc nöqtələrindən biridir.

**Rumiyə MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universitetinin müəllimi, doktorant, Naxçıvan Bəstəkarlar Təşkilatının üzvü*

***Naxçıvan Dövlət Universiteti bu il ard-arda gələn xoş xəbərlər, xaricdə təhsil almaq hüququ qazanan və beynəlxalq layihələrdə yer alan tələbələrinin uğurları ilə tez-tez gündəmə gəlir. Bu uğurlu gənclərin sırasına Biologiya ixtisası üzrə təhsil alan Fidan Hüseynova da qoşulub. O, sərhədləri aşaraq beynəlxalq səviyyədə fərdi mentorluq əsasında elmi-tədqiqat aparmaq imkanı əldə edib.***

# Elmə olan sevgim məni Pensilvaniya Universitetinə apardı




Fidan Lumiere Tədqiqat və İnklüzivlik Fondu tərəfindən keçirilən "Fərdi tədqiqat" proqramına seçilərək 3390 ABŞ dolları dəyərində 100 faizlik tam təqaüdə layiq görülüb: "Bu uğur, əslində, təsadüfən deyil, illərdir, elmə olan sevgimin, gecə-gündüz çəkdiyim zəhmətin və bitmək bilməyən araşdırmalarımın bəhrəsidir. Tələbəlik illərimdən elmi məqalələr yazmaq, müxtəlif konfranslarda çıxış etmək mənim üçün, sadəcə, bir tapşırıq deyil, həyat tərzinə çevrilmişdi. Hətta fəaliyyətimin nəticəsi olaraq məqalələrimdən biri beynəlxalq Scopus indeksli jurnalda işıq üzü gördü. Naxçıvan Dövlət Universitetində qazandığım nəzəri bilikləri Hacettepe Universitetində keçdiyim praktiki laboratoriya dərsləri ilə zənginləşdirməyim isə bir tədqiqatçı kimi möhkəm təməl atmağıma böyük kömək etdi".

Proqram çərçivəsində Fidan öz fərdi elmi layihəsini dünyaca məşhur Pensilvaniya Universitetində Dr. Elizabeth Hellerin laboratoriyasının istiqamətləri üzrə işləyəcək. Bu yolda ona həmin laboratoriyanın tədqiqatçısı Kiara Liz Rodriguez mentorluq edəcək. Fidanın araşdırmasının ana xəttini isə genetika, gen tənzimlənməsi, epigenetika, immunologiya və xəstəliklərin molekulyar mexanizmləri təşkil edir.

Gələcəkdə doktorantura təhsili almaq və müstəqil alim kimi yeni kəşflərə imza atmaq istəyən Fidan topladığı bu dəyərli təcrübəni, sadəcə, özü üçün saxlamaq, doğma universitetinə qayıdaraq gənc tələbələrlə bölüşmək və Azərbaycan elminə fayda vermək arzusundadır.

# Naxçıvan Dövlət Universitetinin məzunu Çinin nüfuzlu universitetində tam təqaüdlə magistr təhsili alacaq

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Beynəlxalq ticarət və logistika ixtisasını fərqlənmə diplomu ilə bitirən Muxtar Məmmədov akademik fəaliyyətində növbəti uğurlu addımını atıb. Universitetin Tələbə Elmi Cəmiyyətinin fakültə üzrə sədri olmuş gənc tədqiqatçı Çinin Yançen Texnologiya İnstitutunun (Yancheng Institute of Technology – YCIT) İqtisadiyyat və İdarəetmə Məktəbində Beynəlxalq biznes (International Business) ixtisası üzrə tam təqaüdlü magistratura proqramına qəbul olunub.

Magistratura seçimi mərhələsində Avropa və Asiyanın aparıcı təhsil ocaqlarının proqramlarını diqqətlə araşdıran Muxtar yüksək akademik göstəriciləri sayəsində Avropanın beş fərqli universitetindən də qəbul dəvəti alıb. Qitənin nüfuzlu ali məktəblərinin təkliflərinə baxmayaraq, o, gələcək akademik və peşəkar inkişafı üçün yekun seçimini məhz Çin istiqamətində edib.






Onun sözlərinə görə, bu seçimdə Çinin dünya iqtisadiyyatında, beynəlxalq ticarətdə və qlobal biznes münasibətlərində mühüm mövqeyə malik olması əsas amillərdən biri olub: "Bakalavr təhsilimi Beynəlxalq ticarət və logistika ixtisası üzrə başa vurduğum üçün magistratura pilləsində Beynəlxalq biznes ixtisasını seçməyim mənim üçün bu istiqamətdəki akademik hazırlığımın məntiqi davamı oldu. Çində təhsil almaq qərarına gəldikdən sonra akademik göstəricilərimə, əvvəlki təhsilimə və gələcək karyera hədəflərimə uyğun universitet və proqramlar haqqında geniş araşdırma apardım. Bu araşdırmalar nəticəsində Yançen Texnologiya İnstitutunun "Beynəlxalq biznes" magistratura proqramının məqsədlərimə ən uyğun seçimlərdən biri olduğunu müəyyənləşdirərək müraciət etdim. Müraciət zamanı əvvəlki təhsilimi təsdiq edən sənədlər, akademik göstəricilərim, dil biliyimi təsdiqləyən sənədlər, CV və universitet tərəfindən tələb olunan digər materialları təqdim etdim. Müraciət prosesinin nəticəsində universitetə qəbulum təsdiqləndi və tam təqaüd qazanmaq hüququ əldə etdim".

Elmi fəaliyyətə olan marağı nəticəsində müxtəlif istiqamətlər üzrə 38 elmi-tədqiqat işinin müəllifi olan Muxtar Məmmədov həmin araşdırmalarının beynəlxalq elmi jurnallarda dərc olunmasına nail olub. Elmi araşdırmaların onun analitik düşünmə, mənbələrlə işləmə və əldə etdiyi nəticələri akademik mühitdə təqdimetmə bacarıqlarının inkişafında mühüm rol oynadığını qeyd edir.

Bununla yanaşı, o, Naxçıvan Dövlət Universiteti Enactus komandasının vitse-prezidenti kimi müxtəlif layihələrin hazırlanması və həyata keçirilməsində də iştirak edib: "NDU Enactus komandasının vitse-prezidenti kimi fəaliyyətim də mənim üçün dəyərli təcrübə olub. Bu fəaliyyət çərçivəsində sosial sahibkarlıq, innovasiya və müxtəlif layihələrin hazırlanıb həyata keçirilməsində iştirak etmişəm. Əldə etdiyim bu təcrübə layihələrin planlaşdırılması, komanda idarəetməsi, problem həlli və əməkdaşlıq bacarıqlarımın inkişafına mühüm töhfə verib.

O əldə etdiyi uğurda daim dəstək olan ailəsinə, Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə və müəllimlərinə minnətdarlığını bildirir. Gənclərə tövsiyəsi isə qarşılarına böyük hədəflər qoymaq, daim öz üzərlərində çalışmaq və inkişaf üçün yaranan imkanlardan maksimum yararlanmaqdır.

✍ **Elnurə CƏFƏROVA**

# Zəngəzur dəhlizi üzərində Ordubad



### *Ucqardan tranzit mərkəzə*

Azərbaycanın müasir siyasi-diplomatik gücü və iqtisadi potensialı təkcə Cənubi Qafqazın deyil, yaxın regionların da gələcək nəqliyyat, enerji, “yaşıl enerji”, turizm, ticarət və logistika layihələrinin reallaşdırılmasında mühüm rol oynayır. 2020-ci ildə 30 illik erməni işğalına son qoyaraq Qarabağı azad edən Azərbaycan yeni geosiyasi reallıqların formalaşmasına da mühüm təkan verdi. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, dünyada “oturuşmuş köhnə daşların” yerindən oynadığı yeni mərhələdə Zəngəzur dəhlizi də regionun nəqliyyat və iqtisadi xəritəsini dəyişdirəcək layihələrdən biri kimi diqqət çəkir.

XXI əsrin sülh və əməkdaşlıq layihəsi kimi qiymətləndirilən Zəngəzur dəhlizi ilə regionun uzun illər istifadəsiz qalmış nəqliyyat və iqtisadi potensiallarının yenidən hərəkətə gətirilməsi gözlənilir. Bu baxımdan, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu da xüsusi əhəmiyyət daşıyır. Dəhlizin reallaşması Ordubadın uzun illər Azərbaycanın ucqar bölgələrindən biri kimi mövcud olan statusunu dəyişdirərək onu mühüm funksional və tranzit mərkəzlərdən birinə çevirə bilər. Ordubadın tarixi inkişaf yolu, iqtisadi-mədəni potensialı və geostrateji mövqeyi bu perspektivin real əsaslara söykəndiyini göstərir.

### *Coğrafi mövqedən tranzit üstünlüyünə*

Təxminən, 979 kvadratkilometr ərazisi olan Ordubad rayonuna 1 şəhər, 3 qəsəbə və 43 kənd daxildir. Naxçıvan Muxtar Respublikasının cənub-şərqində yerləşən rayon Araz çayı ilə Zəngəzur dağları arasında xüsusi coğrafi mövqeyə malikdir və iki ölkə ilə həmsərhəddir. Uzun illər bu coğrafi mövqe Ordubadın müəyyən mənada, ucqar rayon kimi xarakterizə olunmasına səbəb olub. Lakin regionda yaranan yeni nəqliyyat əlaqələri və geosiyasi reallıqlar həmin coğrafi mövqeyə artıq başqa prizmadan baxmağa imkan verir. Zəngəzur dəhlizinin açılması ilə Ordubadın nəqliyyat-logistika imkanlarının genişlənməsi, onun regional iqtisadi əlaqələrdə daha fəal mövqe tutması üçün yeni şərait yarana bilər.

Bu baxımdan, rayonun mövcud nəqliyyat infrastrukturu da xüsusi əhəmiyyət daşıyır. Hazırda Ordubad ərazisində ümumi uzunluğu 225 kilometr olan avtomobil yolları mövcuddur. Bunun 28 kilometri respublika əhəmiyyətli avtomagistral, 4 kilometri şəhərdaxili, 193 kilometri isə kəndlərarası yollardır. Bundan başqa, Bakı-Naxçıvan dəmir yolu xəttinin 50 kilometrlik hissəsi də Ordubad rayonunun ərazisindən keçir.

Beləliklə, nəqliyyat əlaqələrinin genişlənməsi Ordubad üçün yalnız yol imkanlarının artması deyil, həm də yeni iqtisadi fəaliyyət sahələrinin yaranması deməkdir. Yük terminalları, anbar və saxlama məntəqələri, soyuducu anbarlar, qablaşdırma və çeşidləmə mərkəzləri gələcəkdə rayonun logistika potensialının əsas istiqamətlərinə çevrilə bilər.





Ümummilli Lider Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad bu gün təbii gözəllikləri, qədim tarixi, özünəməxsus memarlıq mühiti, zəngin mədəniyyəti və qonaqpərvər həyat tərzi ilə yanaşı, yeni geosiyasi reallıqlar fonunda strateji mövqeyi ilə də diqqət çəkir. Ordubadın Zəngəzurla əlaqəsi isə yeni məsələ deyil. Şərqi və Qərbi Zəngəzurun, bütövlükdə, Azərbaycanın tərkibində olduğu dövrlərdə rayon bu regionla sıx iqtisadi və təsərrüfat əlaqələrinə malik olub. Əsrlərboyu Ordubad əhalisinin əsas məşğuliyyət sahələrindən olan meyvəçilik və digər yerli istehsal sahələri Zəngəzurda geniş bazarlar tapıb. Bu tarixi əlaqələrin müasir nəqliyyat imkanları ilə yenidən canlandırılması rayonun iqtisadi potensialına yeni dinamizm qazandıra bilər.

Buna nail olmaq üçün isə rayonun iqtisadi imkanları kifayət qədərdir. Dövlət başçısı hələ 2021-ci ilin mayında Ordubadda olarkən rayonun potensialını yüksək qiymətləndirmiş və Zəngəzur dəhlizi üzərində onun inkişafının perspektivlərini vurğulamışdır. Prezident İlham Əliyevin Ordubada göstərdiyi qayğı bir sıra mühüm dövlət sənədlərində, xüsusən də iki il əvvəl şəhərin qədim hissəsinin qoruq elan olunaraq mühafizə olunması ilə bağlı verdiyi Sərəncamda ifadə olunmuşdur.

### *“Ordubad” brendindən ixrac potensialına*

Ordubadın tranzit və logistika imkanlarını artıran əsas amillərdən biri də onun kənd təsərrüfatı potensialıdır. Rayon yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları, xüsusilə meyvəçilik ənənələri ilə tanınır. “Ordubad” brendi son illərdə ölkə daxilində, eləcə də xaricdə daha geniş tanınmağa başlayıb. Tarixi sənədlərdə XIX əsrin ikinci yarısında belə Moskva və Londonda Ordubad məhsullarının satıldığı firma mağazalarının mövcudluğu qeyd edilir. Bu fakt bir tərəfdən rayonun qədim ticarət ənənələrini göstərirsə, digər tərəfdən Ordubad məhsullarının gələcək ixrac potensialı barədə düşünməyə əsas verir.

Hazırda Ordubadda 824 hektar meyvə, 20 hektar giləmeyvə və 6,7 hektar üzüm bağı mövcuddur. Bu göstəricilər rayonun kənd təsərrüfatı potensialının yalnız bir hissəsini əks etdirir. Qarşıdakı dövrdə yerli məhsulların brendləşdirilməsi, müasir emal müəssisələrinin yaradılması, qablaşdırma və çeşidləmə imkanlarının genişləndirilməsi həmin məhsulların daha böyük bazarlara çıxışını təmin edə bilər. Bu baxımdan, Zəngəzur dəhlizi Ordubad üçün, sadəcə, tranzit yol deyil, həm də istehsal olunan məhsulların yeni bazarlara çıxarılması üçün mühüm iqtisadi platforma funksiyası daşıya bilər.

### *Dəhlizin turizmə açdığı yol*

Zəngəzur dəhlizinin Ordubad üçün digər mühüm perspektiv istiqaməti turizmdir. Hazırda Bakıdan Naxçıvana təşkil olunan turlar, əsasən, hava nəqliyyatı ilə həyata keçirilir. Nəqliyyat imkanlarının məhdudluğu, xüsusilə turizm mövsümünün sıx vaxtlarında və hava şəraiti ilə əlaqədar müəyyən çətinliklər yarada bilir. Zəngəzur dəhlizinin açılması isə Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində quru nəqliyyatının genişlənməsi ilə yanaşı, yeni turizm marşrutlarının formalaşmasına da şərait yarada bilər. Bu marşrutların üzərində yerləşən Ordubadın isə turizm baxımından ciddi üstünlükləri var. Ordubad təkcə Naxçıvanın deyil, Azərbaycanın tanınmış turizm məkanlarından biridir. Hətta sovet dövründə Naxçıvana turist səfərlərinin məhdud olduğu vaxtlarda belə Ordubad Əshabi-kəhf ziyarətgahı və Şahbuzun Batabatı ilə birlikdə regionun diqqətçəkən turizm məkanlarından olub. Müstəqillik illərində isə blokada şəraitinə baxmayaraq, rayon yerli və əcnəbi turistlərin maraq göstərdiyi məkanlardan birinə çevrilib.

Ordubadın üstünlüyü onun təbiət, tarix, arxeologiya, memarlıq, dini irs və kənd həyatını bir arada təqdim edə bilməsidir. Göygöl, Gəmiqaya və Pəzməri şəlaləsi istiqamətləri turistlərin daha çox üz tutduğu məkanlar sırasındadır. Rayonda fəaliyyət göstərən müxtəlif istirahət və iaşə obyektləri də turizm infrastrukturunun formalaşmasına xidmət edir. Eyni zamanda Ordubad şəhərinin tarixi-mədəni mühiti də mühüm turizm resursudur. Şəhərin Üçtürlənğə, Sərşəhər, Ambaras və Mingis məhəllələri, rayonda fəaliyyət göstərən muzeylər, tarixi abidələr və dini-mədəni irs nümunələri burada mədəni turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bu zəngin irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində də mühüm addımlar atılıb. 2025-ci il iyulun 11-də “Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi” UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib. 2026-cı il fevralın 11-də isə “Ordubad” Tarix-Memarlıq Qoruğunun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə qərar qəbul olunub. Bundan əvvəl 2024-cü il fevralın 21-də “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Bütün bunlar Ordubadın turizm potensialının yalnız daxili deyil, beynəlxalq səviyyədə də dəyərləndirilməsi üçün mühüm əsaslar yaradır. Lakin qarşıdakı mərhələdə bir məsələ xüsusilə diqqətdə saxlanılmalıdır. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın yeni turizm marşrutlarına qoşulması gözlənilirsə, bu marşrutlar üzərində müasir turizm infrastrukturunun, xüsusilə hotellərin və digər yerləşmə vasitələrinin inkişafı vacib olacaq. Ordubadla yanaşı, Culfa, Şərur, Kəngərli və Şahbuz rayonlarında da bu istiqamətdə yeni imkanların yaradılması gələcək turizm axınlarının səmərəli qarşılanmasına xidmət edə bilər.

### *Yeni mərhələnin astanasında*

Zəngəzur dəhlizi Azərbaycanın təşəbbüsü və liderliyi ilə regionun nəqliyyat xəritəsini dəyişdirə biləcək strateji layihə kimi qiymətləndirilir. Çindən Avropaya uzanan Orta Dəhlizin mühüm hissəsi kimi bu layihənin reallaşması yalnız nəqliyyat əlaqələrinin bərpası deyil, region ölkələri arasında iqtisadi, ticarət və turizm münasibətlərinin genişlənməsi baxımından da yeni imkanlar yaradacaq. Bu prosesdə Naxçıvanın bütün rayonları kimi Ordubadın da qarşısında yeni inkişaf perspektivləri açılır. Bir vaxtlar coğrafi mövqeyinə görə Azərbaycanın ucqar rayonlarından biri kimi xarakterizə olunan Ordubadın həmin coğrafi mövqeyi indi onun əsas üstünlüklərindən birinə çevrilə bilər. Tarixi ticarət yollarının, müasir avtomobil və dəmir yolu xətlərinin, kənd təsərrüfatı və turizm potensialının kəsişdiyi bu qədim Azərbaycan şəhəri yeni regional əlaqələr sistemində mühüm funksional mərkəzə çevrilmək imkanına malikdir. Bu baxımdan, Zəngəzur dəhlizi Ordubad üçün, sadəcə, yeni bir yol deyil. Bu, tarixi əlaqələrin bərpası, iqtisadi potensialın genişləndirilməsi, yerli məhsulların yeni bazarlara çıxarılması, turizm imkanlarının artırılması və rayonun regiondakı mövqeyinin yenidən formalaşması üçün yeni mərhələ deməkdir.

Ordubadın qarşısında duran əsas məsələ isə bu imkanları əvvəlcədən düzgün qiymətləndirmək, mövcud potensialı müasir tələblərə uyğun inkişaf etdirmək və onu gələcək regional nəqliyyat-logistika sisteminin fəal iştirakçısına çevirməkdir.

**Əli CABBAROV**

# Gəl, gəzək bu şəhəri



***Mən Nuh Peyğəmbərin dünya tufanından sonra burada yenidən həyat binə etməsinə şahidəm. Dədə Qorqudun qopuz çalıb, söz qoşub oğuz igidlərinə ad qoyduğu, öyüd-nəsihət verdiyi dövrlərin yaşıdıyam. Atabəylər dövlətinin qurulmasına və intibahına, memar Əcəminin bu torpaqda ucaltdığı dəyərli memarlıq abidələrinin tikintisinə şahidlik etmişəm. Əlincəqalanın, hürufiliyin, Fəzlullah Nəiminin müasiriyəm. Nadir şahı taxtda, Şah Abbası qundaqda görmüşəm. Naxçıvan xanlığının bina edilməsinin, Araz-Türk Respublikasının qurulmasının, Naxçıvan diyarının muxtariyyət qazanmasının, nəhayət, inkişaf və çiçəklənməsinin şahidi olan beş min yaşlı qocayam.***

***

Növbəti günə başlamaq üçün səbirsizlənirik bəzən. Dan yeri sökülməmişdən şəhərdə hərəkətlənmə başlayır. Gecə ilə gündüzün qovuşuğunda dörd bir yandan bir səs yayılır ətrafa. Bu səs əsrlərdir ki, bu torpaqlarda səslənən azan səsidir. Sübh zamanı – tam sükutun hakim olduğu zaman bu səsi eştimək daha xoş gəlir insana.

Sonra işə, dərsə, bazar-dükana tələsən insanların danışığı, avtomobillərin səsi sükutu pozur. Bəzən anasının-atasının əlindən tutub yolun kənarı ilə gedən balaca bir uşağın aramsız suallarına, bəzən öz yoldaşları ilə gedən bir qrup yeniyetmənin şən, gülüş dolu söhbətlərinə, bəzən qəlbini sevgi alovu bürümüş iki gəncin pıçıltısına şahid oluram. Bəzən səhər idmanı üçün yürüyüşə çıxmış bir cavanın təngnəfəs səsi, bəzən düşüncəsi gündəlik qayğıları ilə məşğul olan bir insanın sükutu, bəzən isə aram-aram addımlayan yaşlı bir insanın öz-özü ilə, bəlkə də, keçmişlə olan söhbətinin səsi ilə davam edir bu şəhərin günü.

Nuh Peyğəmbərin özünün də vaxtilə duz çıxardığı mədənlər şəhərin lap yaxınlığındadır. Bu mədənlərdə hələ də min illərin izləri, yadigarları qalır.

Bir zamanlar Atabəylər memarlıq ansamblına daxil olan, indi isə Əcəmi seyrəngahı – vaxtilə “Sabir bağı” adlanan yerdə əzəmətlə ucalan Möminə xatun türbəsi bu şəhərin ən dəyərli tarixi incilərindəndir. Şərqdə qadına verilən dəyərin, hörmət və sevginin ən gözəl, ən heyrətamiz nümunəsidir bu abidə. Şərq memarlığının ən gözəl elementlərini özündə birləşdirən Möminə xatun saysız sevgi hekayəsinin, hesabsız el şənliyinin şahididir.

Şəhərin ən uca məkanında bir meydan var: uğrunda can verilən, can alınan üçrəngli Azərbaycan Bayrağının vüqarla dalğalandığı Dövlət Bayrağı Meydanı. Bura azadlığın, müstəqilliyin, inkişafın, müasirliyin, Vətən sevgisinin, şanlı tarixin yaşadığı, yaşadıldığı zamanın simvoludur. Buradan baxanda şəhəri bütövlükdə görə bilərsiniz; bütün Araz vadisini, bərəkətli zəmiləri, uzanan yolları, gözünü vüqarla şəhərə dikmiş Haçadağı, Nəhəcir dağını, Əshabi-kəhf dağını, hətta lap uzaqlarda yerləşən Ağrı dağını, Savalanı belə.



Sinəsi üstündə böyümüş igid oğulları, qoynunda uyuyan şəhidləri var bu şəhərin. İndi bu zirvədən baxanda 90-cı illərin ən ağır zamanlarında Vətən üçün döyüşmüş, 44 günlük Vətən müharibəsində öz canları, qanları bahasına Azərbaycana qələbəni bəxş edən igid oğulları xatırlayıram. Yaşıl donlu, mavi gözlü, al yanaqlı bayrağa bürünmüş şəhid bədənlərini öz qoynuna böyük şərəf və iftixarla aldı bu torpaq. Onlar əbədiyyən bu torpağa əmanətdir.



Bu şanlı tarixi yaşadan muzeylər var bir də. Bu muzeyləri gəzdikcə Naxçıvanı daha yaxşı tanıyacaq, tanıdıqca daha çox sevəcəksiniz. Yolunuzu bu şəhərdən salanda Naxçıvanqalanı mütləq ziyarət edin. Min ildən çox tarixi olan bu qala bu dəfə qonaqları qəbul edib dostlarımıza öz möhtəşəmliyindən söz açır. Qalanın yanında isə bu torpaqların ən böyük və birinci sakini, bəşəriyyətin ikinci atası Nuh Peyğəmbərin məqbərəsi ucalır. Tarixin bütün dövrlərində olduğu kimi, bu gün də Nuh Peyğəmbərin bütün bəşəriyyəti birləşdirən vəhdət fəlsəfəsi Naxçıvanda öz canlılığını qoruyur və tolerantlıq baxımından müstəsna nümunə təşkil edir.

Bu şəhərin ətəyindən axan Arazın üzərində günəş qüruba endikcə başqa bir mənzərə canlanır. Şəfəqdəki canlanmadan daha fərqli bir canlanma olur qürubda. Avtomobil və insan səsləri bir az da artır. Hava qaraldıqca binaların pəncərəsindən küçəyə düşən al-əlvan işıqlar küçə lampalarının işığına, avtomobillərin işıq selinə qarışır.

Gecənin gec saatlarına doğru irəlilədikcə yenidən sükuta qərq olur bu şəhər. Yeni bir günə yenidən başlamaq üçün...

***

Mən Şərqlə Qərbin birləşdiyi Böyük İpək Yolu üzərində yerləşirəm, bir çox mənbələrdə “Şərqin qapısı” adlandırılıram. Tarixboyu müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu yer kimi tanınıb, özümdə həmin mədəniyyətlərin harmoniyasını əks etdirərək multikultural ənənələrimə görə seçilmişəm.



Mən paytaxtam. Naxçıvanşahlığın, Atabəylərin, Araz-Türk Cümhuriyyətinin, müasir Naxçıvan Muxtar Respublikasının paytaxtı, İslam mədəniyyətinin paytaxtı, Azərbaycanın gənclər paytaxtı. Min illərdir ki, sinəmdə həyat qaynayır mənim. Ən çətin günlərdən, ən ağır dövranlardan keçib bugünkü zamana – ağ günlərimə qovuşmuşam.

Mən Şərq memarlığı zəminində ucaldılmış Avropa şəhəriyəm. Mən Naxçıvan şəhəriyəm. Yenə də Şərqlə Qərbin qovşağında, qədim və həmişəcavan Naxçıvan.

✍ **Məmməd BABAYEV**

# Müasirlik, yoxsa özgələşmə?
## Yaxud şəhərimizdə mənası bilinməyən əcnəbi reklamları necə görürük? (Felyeton)

**Son vaxtlar felyeton yazmaq ya dəbdən düşüb, ya da nədənsə kimsənin yadına düşmür. Halbuki indi elə zamandır ki, maşın yolunu düzgün keçməyi bacarmayan piyadadan tutmuş çıxışında urus kəlmələri işlədən vəzifəliyə qədər hər yerdə tənqid mövzusu var. Siz də deyə bilərsiniz ki, bazardakı bahalığı, dərsini yaxşı keçə bilməyən müəllimi, yaxud toyxanalarda musiqi əvəzinə qonaqlara dinlətdirilən guppultunu bir qırağa qoyub küçə reklamları ilə nə işin var, bəyəm daha yekə mövzu yoxdur? Mən də deyəcəyəm ki, açığı, nə işim var… Bizim də o qədər jurnalistimiz var ki, maşallah! Düzdür, onların da bəziləri işləmək əvəzinə köhnə iş yerinə dava açsalar da, aralarında ürəyi və əməyi dar olmayanlar da çoxdur. Xülasə, keçək Mustafaya…**




Bu mövzunu haradasa iki-üç il əvvəl də qəzetə gətirib şəhərimizdə gündən-günə artan yaraşıqlı reklamlara bir balaca toxunmuşduq. İndi isə maşallah, hamı iş sahibi olub. Satdığı malın və ya göstərdiyi xidmətin xod getməsi üçün ona ad qoyur, sonra da bu adı böyük hərflərlə reklam edir. Bəri başdan deyim ki, qanuna əsasən reklam da bir resursdur və bu yazıda kimisə reklam etmək, yaxud gözdən salmaq niyyətimiz yoxdur. Allah qazanclarını min qat eləsin. Təmənnamız odur ki, işləri yaxşı getsin, biz də yolumuz düşəndə ucuzluğundan faydalanaq. Amma Naxçıvan şəhərinin gur yerində, hər kəsin ana dilimizdə başa düşəcəyi, yaraşıqlı bir reklam lövhəsinin yanındaca nəinki 70 yaşlı ağsaqqalın, hətta süni intellekti sökük-yığan tələbənin belə başa düşə bilməyəcəyi əcaib bir reklam lövhəsini görəndə bunun nə iş, nə biznes, nə də müasirliklə bir araya sığmadığına inanırsan. Həm də bunlar son zamanlar o qədər çoxalıb ki, adam adlarını yadda saxlamağa belə əziyyət çəkir. Axırda məcbur olub obyektin adını yox, yanındakı binanı, küçəni, mağazanı yadda saxlayırıq. “Filan yerin yanında bir yer var e, adı nə idi, nəsə “…Max”, “…Lab”, “…Store” kimi bir şey…”

İndi buna müasirlik deyək, yoxsa yaddaşımızın sınağa çəkilməsi? Bu dostlarımız isə inciməsinlər. Müasir olmaq heç də guya kiminsə heç eşitmədiyi bir əcnəbi adı reklama yapışdırmaqdan keçmir. Biznesdə müasirlik müştəri məmnuniyyətidir, yeni və sərfəli məhsuldur, keyfiyyətli xidmətdir, operativ geri dönüşdür. Hətta elə, sadəcə, dilimizin zənginliyindən faydalanıb milli adda məhsul və ya xidmət ortaya qoymaq da müasirlikdir. Çünki müasirliyin dili mütləq əcnəbi dil olmur.

Şəhərimizin ən gur yerində, bizim redaksiyadan da baxanda görünən “Digi Max” yazılı reklam lövhəsinə baxanda adı Azərbaycan adı ilə başlayan telekommunikasiya şirkətinin bu adla insanların yaddaşında nəyi dəyişdirdiyini, yaxud nəyi yaddaşdan sildiyini düşünmək belə maraqlıdır. Mövzu ilə bağlı şirkətin şəhərimizdəki ofisinə yaxınlaşıb soruşduqda cavab verməyə çətinlik çəkib bizi Bakıya, mərkəzi ofisə yönəltdilər. Buraya yazdığımız elektron məktuba isə hələ də cavab gəlməyib. Yəqin, böyük Üzeyir bəyin məşhur “Tarixi-Nadir” ifadəsini bir az dəyişib desək, belə başa düşmək olar: bunu heç özləri də bilmirlər. Yəqin, oxumayıblar!

Şəhərimizin baş prospektində, eləcə də digər mərkəzi küçələr boyunca belə reklamlara biganə qalmayan şəhər əhli isə xeyli saydadır. Kimisi yad dildəki yazıları oxuya bilmir, kimisi oxuyub yadda saxlaya bilmir, kimsə də onları görəndə, sadəcə: “Gör nə günə qaldıq…” – deyə fikrini bildirir. Əslində, məsələ heç də bir neçə hərfin və ya sözün əcnəbi dildə yazılmasında deyil. Məsələ ondadır ki, şəhərin küçəsi də bir növ kitabdır. Oradakı hər lövhə, hər yazı, hər ad şəhərin simasına nəsə əlavə edir. Sabah şəhərimizə gələn qonaq da, burada yaşayan uşaq da, küçədən keçən yaşlı adam da həmin mənzərəni görür. Bəs biz bu şəhərdə nə görmək istəyirik? Öz dilindən utanmayan, müasir, yenilikçi, dünyaya açıq bir şəhər, yoxsa müasir görünmək üçün öz sözlərini yavaş-yavaş lövhələrdən silən bir şəhər? Bir də düşünək: sahibkarın öz obyektinə istədiyi adı vermək haqqı varsa, şəhərin də öz dilində görünmək haqqı yoxdurmu? Var, əlbəttə, həm də ən böyük haqqı var.

Əminik ki, kiçik bir sorğu aparsaq, nəticə çoxlarını təəccübləndirməz. Naxçıvanda insanlar adları dilimizə yağ kimi yayılan dükanları, restoranları, kafeləri, gözəllik salonlarını, aptekləri bir dəfə görən kimi yadda saxlayır, sonra da tanıdıqlarına tövsiyə edirlər. Qalanı isə fotokollajda görünən adları icad edənlər özləri olacaqlar. Amma onlara da bir sözümüz var: müasir olmaq üçün özgələşməyə ehtiyac yoxdur. Dilimiz kifayət qədər zəngindir. Həm də elə zəngindir ki, yaxşı biznes adı tapmaq üçün dünyanın o biri başına getməyə heç ehtiyac yoxdur. Ona görə də çalışın azlıqda qalan olmayın. Çünki müasirlik başqa dilin sözünü lövhəyə yazmaq deyil. Müasirlik öz dilində dünyaya açıq olmaqdır.

**✍ Əli CABBAROV**

# Naxçıvanlı güləşçilər Artvindən böyük zəfərlə qayıdıblar




Türkiyənin Artvin şəhəri növbəti dəfə nüfuzlu idman yarışına ev sahibliyi edib. 14-15 yaş qrupu arasında təşkil olunan Mehmet Sosanoğlu Sərbəst Güləş Festivalı beynəlxalq miqyasda gərgin və maraqlı mübarizəyə səhnə olub. 20 ölkədən 140 idmançının qüvvəsini sınadığı bu turnirdə ölkəmizi layiqincə təmsil edən Naxçıvan komandası möhtəşəm qələbəyə imza ataraq komanda hesabında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gürcüstanın ikinci, Türkiyə və İranın isə üçüncü yeri bölüşdürdüyü turnirdə komandamıza kuboku Türkiyə Güləş Federasiyasının prezidenti, tanınmış güləşçi Taha Akgül təqdim edib.

Baş məşqçi Faiq İsgəndərov, məşqçilər Orxan Əsgərov, Barı Əliyev və Nihad Muradovun rəhbərliyi altında 11 idmançı ilə turnirə yollanan komandamız, ümumilikdə, 3 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıb. Qızıl medalları komandamıza Cahangir Əhmədov, Alcəfər Musayev və Şamxal Əlizadə qazandırıb. Adəm Məmmədli gümüş, Adəm Babayev isə bürünc medalla mükafatçılar sırasına düşüb.

Yarışın yekunları ilə bağlı fikirlərini bölüşən baş məşqçi Faiq İsgəndərov bildirib ki, 20 ölkənin idmançıları arasında birinci yeri tutmaq böyük məsuliyyət və qürurdur: “Xüsusilə Türkiyə, Gürcüstan və İran kimi sərbəst güləş ənənələri zəngin olan ölkələri geridə qoymağımız idmançılarımızın fiziki və psixoloji cəhətdən yarışa yüksək səviyyədə hazırlaşdığının əyani sübutudur. Güləşçilərimiz hər bir görüşə qələbə əzmi ilə çıxdılar, son saniyəyədək mübarizə apardılar”.

Turnirin qızıl medalçısı Alcəfər Musayev də yarışla bağlı təəssüratlarını bölüşüb. 48 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edən yeniyetmə idmançımız qeyd edib ki, beynəlxalq yarışda döşək üzərinə çıxarkən yeganə məqsədi Azərbaycan bayrağını yüksəklərə qaldırmaq və Dövlət Himnimizi səsləndirmək olub: “Rəqiblərim kifayət qədər güclü idi. Məşqçilərimin taktiki tapşırıqlarını dəqiq yerinə yetirməyim mənə qələbə qazandırdı. Bu uğur növbəti, daha böyük yarışlar üçün mənim karyerama böyük bir təkandır”.

Ağır çəki dərəcəsində mübarizə apararaq komandamıza bürünc medal qazandıran Adəm Babayev isə turnirin olduqca gərgin keçdiyini diqqətə çatdırıb: “Ağır çəkidə rəqabət həmişə yüksək olur və hər bir xal uğrunda ciddi mübarizə gedir. Yarışda bürünc medal qazansam da, komanda hesabında birinci olmanın qürurunu yaşayıram. Buraxdığım kiçik səhvlər üzərində çalışaraq gələcək turnirlərdə yalnız qızıl medal üçün xalçaya çıxacağam”.

Artvində güləşçilərimizin qazandığı bu uğur onlarda qarşıdakı digər beynəlxalq turnirlər üçün böyük inam və qələbə əzmi yaradır.

**✍ Elnurə CƏFƏROVA**

### İtmişdir

Babək rayonu, Babək şəhər sakini Süleymanov Eyvaz Kazım oğlunun adına olan 67-BD-799 dövlət nömrə nişanlı avtomobilin AD-210014 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Bədəlov Vəli Orucqulu oğlunun adına olan JN-083$^{B}$ nömrəli, 10311058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Vayxır kənd sakini İsmayılova Sahibə Əliqulu qızının adına olan JN-37$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Firdovsi küçəsi, ev 60-da yaşamış Abdullayev Məmməd Hüseyn oğlunun adına olan 3674 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Vəliyev Salman Həsən oğlunun adına olan JN-011$^{A}$ nömrəli, 10210018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Əhmədova Nərgiz Ələsgər qızının adına olan Naxçıvan şəhəri, Naxçıvan-Sədərək dəmir yolu 1-5 ünvanında qeyri-yaşayış binasının 104011000559-06301 reyestr nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Heydər Əliyev prospekti 36, mənzil 30 ünvanında İsmayılova Məhbubə Əkbər qızının mülkiyyətində olan evin 286 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Əliyeva Şura Zülfəli qızının adına olan evin 102013000795-10301 reyestr nömrəli, 1539 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

İmanova Məlakə Hacıağa qızının adına olan Ordubad rayonu, Füzuli küçəsi 2 ünvanında yerləşən fərdi yaşayış evinə aid 132 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Qurbanov Mahir Cəlal oğlunun adına olan JN-179 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Ə.Əliyev 41, mənzil 45-də yaşayan Abdullayev Emil İlham oğlunun adına olan evin 9393 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Aza kəndində Eyvazov Qasım Əlmədət oğlunun adına olan 4951 inventar nömrəli qeyri-yaşayış binasına verilmiş texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Nəcəfova Mənsurə İsa qızına məxsus JN-80$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Tağıyev Məmmədəli Zeynalabdın oğluna məxsus JN-526 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kəndində yaşamış Hüseynov Çingiz Paşa oğluna məxsus JN-331$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kəndində yaşamış Məcnunov İlyas Kərəm oğluna məxsus JN-76 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Bağırova Qəndab Əzim qızına məxsus JN-204$^{A}$ və JN-204$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Bağırov Ələddin Kazım oğluna məxsus JN-32$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
RƏMZİ TAHİRLİ
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühasibat: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 201
Nömrəyə məsul: Nail Əsgərov, Elnurə Cəfərova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.